‘KASPİ’ QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB

# Kaspi

ÜÇ ƏSRİN QƏZETİ



19 APREL ŞƏNBƏ 2025 I № 14 (4215) Qiymәti - 60 qәpik www.kaspi.az



## XARİCİ DİPLOMATLAR XANKƏNDİ VƏ ŞUŞADA

Azərbaycanda akkreditə olunmuş diplomatik korpus nümayəndələri Xankəndi və Şuşaya səfər ediblər. Səfər çərçivəsində onlar Qarabağ Universiteti, Xankəndi şəhərinin mərkəzi, Şuşa şəhərində Qarabağ küçəsi, Aşağı Gövhər Ağa məscidi və birinci yaşayış kompleksini ziyarət ediblər.

SƏHİFƏ 2-də



## AMBULATOR MÜALİCƏ ALAN XƏSTƏLƏRƏ ŞAD XƏBƏR

Azərbaycanda dərmana xərclənən vəsaitin artması narahatlıq yaradır. Ekspertlər bunu həm xaricdə dərman preparatlarının bahalaşması, həm də mövsümi xəstəliklərlə əlaqələndirirlər. Qısa müddətdə bu sahədə köklü dəyişikliklər gözlənilir.

SƏHİFƏ 12-də



## TAKSİDƏ TƏHLÜKƏSİZLİYİMİZİ NECƏ QORUYAQ?

Səs-küyə səbəb olan son hadisədən sonra taksi xidmətləri ilə bağlı narazılıqlar bir daha gündəmə gəldi. Ümumiyyətlə, son dövrlərdə ictimai nəqliyyat, xüsusilə taksi xidmətlərindən istifadə zamanı yaşanan bəzi xoşagəlməz hallar cəmiyyətdə narahatlıq doğurur.

SƏHİFƏ 7-də

MİXEİL KAVELAŞVİLİ İLK XARİCİ SƏFƏRİNİ AZƏRBAYCANA ETDİ

# XÜSUSİ VƏ NÜMUNƏVİ QONŞULAR



Azərbaycan Gürcüstan xalqının seçimini, müstəqil siyasət yürütmək kursunu tam olaraq dəstəkləyir. Çünki Bakının da istənilən dövlət və ya təşkilatla ikitərəfli münasibətlərində tələb etdiyi başlıca prinsip məhz bərabərhüquqluluq, qarşılıqlı hörmət və daxili işlərə müdaxilənin yolverilməzliyidir.

### HƏYATA KEÇİRİLƏN BİRGƏ LAYİHƏLƏR

Prezident İlham Əliyev: “Azərbaycanın və Gürcüstanın birgə həyata keçirdiyi neft-qaz layihələri, neft-qaz kəmərləri, nəqliyyat, kommunikasiya layihələri, sözün əsl mənasında, böyük əhəmiyyət daşıyan layihələrdir və nəinki Cənubi Qafqazın, Avrasiya regionunun nəqliyyat və enerji xəritəsini yenidən tərtib edən layihələrdir”.

### “SÖZÜMÜZÜN DƏYƏRİNİ BİLİRİK”

Gürcüstan Prezidenti Mixeil Kavelaşvili: “Biz münasibətlərdə güvənməyin nə qədər vacib olduğunu başa düşürük və sözümüzün dəyərini bilirik. Bizi xilas edən və bu günə çatdıran bir sıra yazılmamış qanunlarımız, dəyərlərimiz var. Ona görə də Gürcüstan-Azərbaycan dostluğu və strateji tərəfdaşlığı bu qədər xüsusi və nümunəvidir”.

SƏHİFƏ 3-də

“Artıq özüm üçün oxuyuram”

## “İNSANI ŞƏRƏFLƏNDİRƏN ONUN ZƏHMƏTİDİR”



“Səhnədə mənim yanımda həmişə musiqiçilər olub. İndi burada tək-tənha dayanmışam, bu, mənim üçün həddən artıq çətindir. Hər işin öz çətinliyi var, eləcə də bu işin. Düzü, gələndə bir az tərəddüd edirdim. Mənimki odur ki, bir-iki mahnı oxuyub gedim. Amma qismət oldu ki, bu gözəl uşaqların nurlu sifətini görürəm...” Görkəmli xanəndə, Xalq artisti Alim Qasımovun “Məktəbdə” görüşü yağışlı, tufanlı havaya təsadüf etdi.

SƏHİFƏ 8-9-da



## FÖVQƏLDÖVLƏTLƏRİN DÜNYANI BÖLMƏ PLANI

Dünyanın fövqəldövlətlər tərəfindən nüfuz dairəsinə bölünməsi ilk dəfə 1945-ci ildə Yalta konfransında gündəmə gəlib. Əgər 80 il əvvəl dünyanın bölgüsü sistemində ABŞ və SSRİ ilə yanaşı, Böyük Britaniya da var idisə, indi sonuncunu Çin əvəzləyir.

SƏHİFƏ 5-də



## MƏKTƏBLƏR PUBLİK HÜQUQİ ŞƏXS OLARSA...

Təklif olunan yeni modelə keçid məktəblərə hüquqi baxımdan müstəqil qərar vermək imkanı tanıyacaq. Yəni məktəb, dövlətin müəyyən etdiyi çərçivələr daxilində, həm maliyyə məsələlərində, həm də idarəetmədə daha sərbəst olacaq.

SƏHİFƏ 6-da



## LÜKS XİDMƏTİN ARXA FONU

Son vaxtlar AQTA müxtəlif restoranlarda yoxlamalar aparır və nöqsanlar aşkarlayır. Onların sırasında insanlar arasında populyar olanlar da var. Bəs bu yoxlamalar restoran-kafelərdə sanitar-gigiyena standartlarının yaxşılaşdırılmasına töhfə verirmi?

SƏHİFƏ 11-də



Pezeşkian Bakıya aprelin 28-də gələcək

SƏHİFƏ 2-də



Yağıntıların fəsadları aradan qaldırılır

SƏHİFƏ 10-da



Kimlər daha çox maaş alır?

SƏHİFƏ 13-də



Kənd toyuğu adı ilə aldatma cəhdləri

SƏHİFƏ 15-də



Futbolçularımız niyə qol vura bilmirlər?

SƏHİFƏ 16-da



# İlham Əliyev Mövlud Çavuşoğluya başsağlığı verib

Prezident İlham Əliyev Türkiyə Böyük Millət Məclisinin millət vəkili Mövlud Çavuşoğluya atasının vəfatı ilə bağlı başsağlığı məktubu göndərib.
"Report" xəbər verir ki, məktubda deyilir: "Hörmətli cənab Çavuşoğlu.
Ailənizə üz vermiş ağır itki – atanız Osman Çavuşoğlunun vəfatı xəbəri məni olduqca kədərləndirdi. Bu üzüntülü anlarda dərdinizə şərik çıxır, Sizə və ailənizin bütün üzvlərinə dərin hüznlə başsağlığı verir, səbir diləyirəm. Allah rəhmət eləsin!"



# İran Prezidenti Bakıya aprelin 28-də gələcək

İran Prezidenti Məsud Pezeşkian aprelin 28-də Azərbaycana səfər edəcək.
"Report"un məlumatına görə, bu barədə "Azad İran" İranın Ticarət-Sənaye Palatasının sədr müavini Hüseyn Pirmoazzinə istinadən xəbər verir. Onun sözlərinə görə, İran Prezidentinin səfərindən əvvəl Bakıya Ərdəbil vilayəti və ölkənin şimal-qərb vilayətlərindən 110 özəl sektor nümayəndəsi və sahibkardan ibarət qrup yola düşəcək.

# XARİCİ DİPLOMATLAR XANKƏNDİ VƏ ŞUŞADA

**Xankəndi, Ağdərə, Xocalıya 30 milyon manat investisiya qoyulub. Bu ərazilərdə 3 mindən artıq şəxs il sonuna kimi işlə təmin olunacaq. Eyni zamanda, Xankəndi Hava Limanının inşası davam edir.**



**Fotolar:** Tapdıq Abdullayev - Global Photostock

Azərbaycanda akkreditə olunmuş diplomatik korpus nümayəndələri (səfirlər və müşavirlər) Xankəndi və Şuşaya səfər ediblər. Səfər çərçivəsində onlar Qarabağ Universiteti, Xankəndi şəhərinin mərkəzi, Şuşa şəhərində Qarabağ küçəsi, Aşağı Gövhər Ağa məscidi və birinci yaşayış kompleksini ziyarət ediblər.

### BEYNƏLXALQ HÜQUQUN CİDDİ ŞƏKİLDƏ POZULDUĞU MƏKAN

Xankəndiyə səfər çərçivəsində diplomatik korpus nümayəndələri Qarabağ Universitetində yaradılan şəraitlə tanış olublar.

Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bildirib ki, Azərbaycan Cənubi Qafqaz regionunda yeni status-kvo yaradıb. O, Xankəndi barədə danışaraq qeyd edib ki, adı "Xanın kəndi" mənasını verən bu şəhər Azərbaycan tarixinin qədim və əhəmiyyətli yaşayış məntəqələrindən biridir: "1923-cü ildə Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılmasından sonra şəhər onilliklər boyunca Stepanakert adlandırılıb. 1980-ci illərin sonlarında isə Xankəndi separatizmin, terrorizmin və terror fəaliyyətlərinin mərkəzinə çevrildi, bu da Azərbaycanda və daha geniş regionda uzun sürən faciəli münaqişənin əsasını qoydu".

H.Hacıyev vurğulayıb ki, həmin dövrdə şəhər beynəlxalq hüquq, o cümlədən beynəlxalq humanitar hüququn ciddi şəkildə pozulduğu bir yerə çevrilib. "Burada azərbaycanlı mülki şəxslərin və hərbi qulluqçuların əsir və girov kimi saxlanılması, işgəncəyə məruz qalması halları baş verib. Bir növ bu şəhər azərbaycanlı əsirlər üçün düşərgə rolunu oynayıb. "Soyuq müharibə"dən sonra beynəlxalq ictimaiyyət sülh və əməkdaşlıq əsasında yeni dünya nizamı qurmağa çalışdığı bir zamanda bu şəhər, təəssüf ki, həmin prinsiplərin pozulmasının simvoluna çevrilib", - deyə H.Hacıyev vurğulayıb.

Prezidentin köməkçisi əlavə edib ki, Xankəndi beynəlxalq hüququn məhv edildiyi bir məkan olub: "Bu gün Azərbaycan regionda yeni status-kvo yaradaraq bu şəhəri həyata qaytarır".



## "ONLAR BAKIDA QANUN QARŞISINDA CAVAB VERİRLƏR"

Prezidentin köməkçisi qeyd edib ki, Azərbaycan qətiyyətli addımlar və məsuliyyətli dövlət idarəçiliyi ilə münaqişəyə özü son qoyub. Azərbaycanın yanaşması yalnız münaqişəni sonlandırmayıb, həm də Cənubi Qafqazda uzunmüddətli barışığın və sülhün təməlini qoyub: "Keçid ədaləti hər post-münaqişə vəziyyətində olduqca vacibdir. Azərbaycan xalqına qarşı törədilmiş cinayətlərin, o cümlədən müharibə cinayətləri və insanlığa qarşı cinayətlərin icraçıları artıq qanun qarşısında cavab verirlər. Hazırda məhkəmə prosesləri Azərbaycanda davam edir. Ümid edirik ki, şəffaf və açıq məhkəmə araşdırmaları nəticəsində ədalət bərqərar olacaq. Bu, hər bir münaqişədən sonrakı prosesin əsas tərkib hissəsidir. Azərbaycan Cənubi Qafqaz regionunda beynəlxalq hüquq və ərazi bütövlüyü prinsiplərinə əsaslanan yeni status-kvo yaradıb".

Prezidentin köməkçisi vurğulayıb ki, Qarabağ və Şərqi Zəngəzur bölgələri yenidənqurma, transformasiya və bərpa mərhələsinə qədəm qoyur.

## ERMƏNİSTAN TƏBİİ SƏRVƏTLƏRİMİZİ TALAN EDİB

Xocalı və Ağdərə rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Elçin Yusubov diqqətə çatdırıb ki, Ermənistan işğal dövründə Azərbaycanın təbii sərvətlərini talan edib. O qeyd edib ki, Ermənistan 30 il ərzində Azərbaycana qarşı ciddi müharibə cinayətləri törədib: "Həmin dövrdə mövcud infrastruktur baxımsız qalıb, meşələr qırılıb, sular çirkləndirilib, təbii sərvətlər talan edilib. Azərbaycan xalqına məxsus dini-mədəni abidələr dağıdılıb, tarixi abidələrimiz saxtalaşdırılıb, qəbirlər dağıdılıb".

Xüsusi nümayəndə vurğulayıb ki, Azərbaycan əraziləri işğaldan azad etdikdən sonra burada qalan Ermənistan vətəndaşlarının bütün ehtiyaclarını qarşılamağa səy göstərib: "İşğal dövründə Xankəndinin memarlıq üslubuna ciddi xələl gətirilib. Burada müasir şəhər həyatının tələblərinə cavab verən heç bir sistem quraşdırılmayıb".

E.Yusubov Azərbaycan ərazilərində işğaldan sonrakı bərpa prosesi zamanı Birinci Qarabağ müharibəsi dövründə öldürülən azərbaycanlıların qəbirlərinin aşkarlandığını diqqətə çatdırıb: "Öldürülən azərbaycanlılar kütləvi şəkildə basdırılıb".

### 30 MİLYON MANAT İNVESTİSİYA QOYULUB

Xüsusi nümayəndə qeyd edib ki, Xankəndi, Ağdərə, Xocalıya 439 sahibkarlıq subyekti 30 milyon manat investisiya qoyub. Hazırda bölgədə yerli və xarici investorlar üçün münbit şərait yaradılır: "Bu ərazilərdə 3 mindən artıq şəxs il sonuna kimi işlə təmin olunacaq".

Xüsusi nümayəndə əlavə edib ki, eyni zamanda, Xankəndi Hava Limanının inşası davam edir: "Həmçinin, burada yeni müasir avtomobil, dəmiryolu çəkilir, müasir SES istismara verilir, yaşıl enerji prinsipi əsas götürülərək alternativ enerjidən istifadə genişləndirilir, işğal dövründə qırılmış meşələrin bərpası istiqamətində işlər aparılır".

O əlavə edib ki, Xankəndinin yeni baş planı da hazırlanır.

# XÜSUSİ VƏ NÜMUNƏVİ QONŞULUQ



Azərbaycan Gürcüstan xalqının seçimini, müstəqil siyasət yürütmək kursunu tam olaraq dəstəkləyir. Çünki Bakının da istənilən dövlət və ya təşkilatla ikitərəfli münasibətlərində tələb etdiyi başlıca prinsip məhz bərabərhüquqluluq, qarşılıqlı hörmət və daxili işlərə müdaxilənin yolverilməzliyidir.



AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

Gürcüstan Prezidenti Mixeil Kavelaşvili fəaliyyətə başladıqdan sonra ilk xarici səfərini Azərbaycana etdi. O, Bakıda Prezident İlham Əliyev, həmçinin digər rəsmilərlə görüşlər keçirib, qarşılıqlı maraq doğuran məsələlərlə bağlı müzakirələr aparıb. Dövlət başçıları mətbuata birgə bəyanatla da çıxış ediblər.

## HƏYATA KEÇİRİLƏN BİRGƏ LAYİHƏLƏR

Prezident İlham Əliyev bildirib ki, Gürcüstan və Azərbaycan birgə bir çox önəmli layihələri icra ediblər və bu layihələr həm ölkələrimiz, xalqlarımız, həm də daha geniş coğrafiya üçün böyük önəm daşıyır: "Azərbaycanın və Gürcüstanın birgə həyata keçirdiyi neft-qaz layihələri, neft-qaz kəmərləri, nəqliyyat, kommunikasiya layihələri, sözün əsl mənasında, böyük əhəmiyyət daşıyan layihələrdir və nəinki Cənubi Qafqazın, Avrasiya regionunun nəqliyyat və enerji xəritəsini yenidən tərtib edən layihələrdir. Əgər biz bu gün Avropanın enerji təhlükəsizliyi haqqında danışırıqsa, bunu Azərbaycansız, Gürcüstansız təsəvvür etmək mümkün deyil. Hazırda Gürcüstan daxil olmaqla Azərbaycan 12 ölkəyə təbii qaz ixrac edir və bu ixrac Gürcüstan vasitəsilə həyata keçirilir".

## "SÖZÜMÜZÜN DƏYƏRİNİ BİLİRİK"

Gürcüstan Prezidenti Mixeil Kavelaşvili isə deyib ki, iki ölkənin dostluğu qarşılıqlı hörmətə və milli maraqların nəzərə alınmasına əsaslanır: "Biz münasibətlərdə güvənməyin nə qədər vacib olduğunu başa düşürük və sözümüzün dəyərini bilirik. Bizi xilas edən və bu günə çatdıran bir sıra yazılmamış qanunlarımız, dəyərlərimiz var. Ona görə də Gürcüstan-Azərbaycan dostluğu və strateji tərəfdaşlığı bu qədər xüsusi və nümunəvidir".

## SƏFƏRİN ƏHƏMİYYƏTİNİ ARTIRAN MƏQAM

Qeyd edək ki, Mixeil Kavelaşvilinin Bakı səfəri bir sıra mühüm məqamları ilə diqqət çəkib. Səfər ərəfəsində son həftələrdə həm Azərbaycanı, həm də ümumilikdə bölgəmizi yaxından maraqlandıran siyasi və geoiqtisadi proseslər yaşanır. Bu proseslərin mərkəzindəki əsas qüvvə, mühərrik rolunu oynayan Bakıdır. Bununla belə, qeyd etdiyimiz proseslərin digər iştirakçılarının səsləndirdiyi müəyyən bəyanatlar Azərbaycan-Gürcüstan müzakirələrinin aktuallığını daha da artırır.

Söhbət aprelin 4-də Özbəkistanın Səmərqənd şəhərində Avropa İttifaqı-Mərkəzi Asiya sammitində Avropa Komissiyasının sədri Ursula fon der Lyayenin Transxəzər və Orta Dəhliz nəqliyyat layihələri ilə bağlı səsləndirdiyi fikirlərdən gedir. O, bu layihələrin Avropa üçün mühüm strateji əhəmiyyət daşıdığını qeyd etsə də, Gürcüstanın yox, Ermənistanın əsas tranzit ölkə olmasını istədiklərini açıq şəkildə bəyan edib. Təbii ki, bu yanaşma Azərbaycan üçün yeni deyil. Əvvəlki illərdə Bakı-İrəvan danışıqlarında vasitəçilik edən Brüsselin əsl mahiyyətinin nədən ibarət olduğunu təcrübədə Azərbaycan çox gözəl bilir.

## ORTA DƏHLİZ MESAJI

Avropa İttifaqının Mərkəzi Asiya ilə strateji müttəfiqlik planlarının Bakının iştirakı olmadan, maraqları nəzərə alınmadan reallaşmayacağını Brüsseldə də çox yaxşı anlayırlar. Bununla belə, yenə də əslində Cənubi Qafqazda regional inteqrasiya, iqtisadi inkişaf istiqamətində başlıca əngəl sayılan Ermənistanı sülh əldə edilmədən nəyin bahasına olursa-olsun xilas etməyə çalışırlar. Lakin Bakının mövqeyi qətidir. Azərbaycan hər bir məsələdə öncə öz milli maraqlarını əsas tutur və heç bir qüvvə bu məsələdə rəsmi Bakının iradəsinə təsir göstərə bilməz.

Prezident İlham Əliyev gürcü həmkarı ilə mətbuata birgə açıqlamasında bu məsələyə də son nöqtəni qoyub. Dövlət başçısı bildirib ki, nəqliyyat-kommunikasiya sahəsində əldə olunmuş nailiyyətlər, yeni inşa edilmiş dəmir yolları, limanlar həm Azərbaycanda, həm də Gürcüstanda böyük sinergiya yaradıb və əslində, Orta Dəhlizin ayrılmaz hissəsinə çevrilib: "Əgər bu gün biz Cənubi Qafqazda Orta Dəhliz layihəsindən danışırıqsa, bu, Azərbaycandan və Gürcüstandan keçən dəhlizdir".



## "REGİONUN TƏHLÜKƏSİZLİYİNİ VƏ SABİTLİYİNİ TƏMİN EDİRİK"

Bəs uzun illər Tbilisini bölgədə özünün "ən yaxın strateji müttəfiqi" adlandıran Aİ-nin mövqeyindəki kəskin dəyişikliyin səbəbi nədir? Brüsselin Gürcüstanı özünün planlarından kənarlaşdırmaq cəhdlərinin arxasında dayanan əsas niyyət nədir? Bu sualların cavabını elə Gürcüstan Prezidenti özü verir: "Təəssüf ki, son vaxtlar ölkələrimiz dəfələrlə ikili standartların və xarici qüvvələrin daxili işlərə müdaxiləsinin obyektinə çevrilib. Çoxsaylı səylərə baxmayaraq, biz bu təhlükələri qətiyyətlə aradan qaldırırıq, regionun təhlükəsizliyini və sabitliyini təmin edirik.

Heç bir üçüncü ölkə və ya təşkilatın xalqlarımız üçün nəyin yaxşı olduğunu bizdən yaxşı bilməsi mümkün deyil. Şadam ki, Azərbaycan ilə Gürcüstan arasında ümumi maraqların müdafiəsi sahəsində əməkdaşlıq intensivləşib və cənab Prezident, buna görə Sizə bir daha təşəkkür edirəm".

Bu bəyanatdan da göründüyü kimi, Azərbaycan Gürcüstan xalqının seçimini, müstəqil siyasət yürütmək kursunu tam olaraq dəstəkləyir. Çünki Bakının da istənilən dövlət və ya təşkilatla ikitərəfli münasibətlərində tələb etdiyi başlıca prinsip məhz bərabərhüquqluluq, qarşılıqlı hörmət və daxili işlərə müdaxilənin yolverilməzliyidir. İndi Gürcüstan da özünə münasibətdə Bakının diktə etdiyi bu prinsiplərin reallaşmasına çalışır. Təbii ki, strateji müttəfiqi, mehriban qonşusu və sülh, inkişaf, inteqrasiyanı özünün prioriteti elan edən Azərbaycanın dəstəyi ilə...

# BÖYÜK POTENSİALI OLAN ƏMƏKDAŞLIQ

Azərbaycanla Çinin bir-birinə uğurlu tərəfdaş kimi yanaşması iki ölkənin maraqlarını geoiqtisadi müstəvidə uyğunlaşdırır. Çin və Azərbaycanın "Bir kəmər, bir yol", Orta Dəhliz layihələrindəki maraqları strateji tərəfdaşlığı iqtisadi-ticari imkanlar və qarşılıqlı investisiyalar üzərində cəmləyir.



AQŞİN KƏRİMOV



Azərbaycan dünyanın əsas güclərindən birinə çevrilən Çinlə geniş sahələri əks etdirən xarici siyasət doktrinasına üstünlük verir. 2024-cü ilin iyulun 3-də Azərbaycanla Çin arasında Şanxay Əməkdaşlıq Təşkilatının Astanada keçirilən Zirvə toplantısı çərçivəsində imzalanan "Strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə" genişlənən əməkdaşlıqda xüsusi diqqət çəkdi. Həmin Bəyannamə Azərbaycan Prezidenti İlham Əliyevlə Çin Xalq Respublikasının Sədri Si Cinpinin görüşünün nəticəsində qəbul olunub.

Azərbaycan Prezidenti İlham Əliyev bundan sonra, yanvarın 20-də Davos İqtisadi Forumunda Çinin CGTN (China Global Television Network) televiziyasına bu əməkdaşlığa ikitərəfli münasibətlər, regional və qlobal aspektlər prizmasından mövqeyini sərgiləmişdi.

2025-ci ilin martın 21-də Novruz bayramı münasibətilə Azərbaycan liderinə təbrik məktubu ünvanlayan Si Cinpin strateji tərəfdaşlıq münasibətlərinin inkişaf etdiyini qeyd edib.

Bu yaxınlarda isə Azərbaycan Prezidenti İlham Əliyevin Çinə səfəri gözlənilir. Azərbaycan-Çin Hökumətlərarası Ticarət-İqtisadi Əməkdaşlıq Komissiyasının 10-cu iclasında bildirilib ki, səfər çərçivəsində qarşılıqlı vizasız gediş-gəliş haqqında Sazişin imzalanması planlaşdırılır.

Bu xəbərdən sonra Prezident İlham Əliyev aprelin 17-də Çin Xalq Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Lu Meyin etimadnaməsini qəbul edib.

İlham Əliyev Azərbaycan-Çin əlaqələrinin strateji tərəfdaşlıq xarakteri daşıdığını deyib, əməkdaşlığın geniş sahələri - siyasi, iqtisadi-ticari, nəqliyyat, enerji, sənaye, sərmayələr, təhlükəsizlik, mədəni-humanitar və digər istiqamətləri əhatə etdiyini vurğulayıb.

Prezident İlham Əliyev Azərbaycanın "Vahid Çin" siyasətini daim dəstəklədiyini bildirib. Lu Mey Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın uğurla inkişafının Çin tərəfindən də dəstəkləndiyini deyib.

## ƏMƏKDAŞLIQDAN MÜDAFİƏYƏ

Azərbaycanla Çinin bir-birinə uğurlu tərəfdaş kimi yanaşması iki ölkənin maraqlarını geoiqtisadi müstəvidə uyğunlaşdırır. Çin və Azərbaycanın "Bir kəmər, bir yol", Orta Dəhliz layihələrindəki maraqları strateji tərəfdaşlığı iqtisadi-ticari imkanlar və qarşılıqlı investisiyalar üzərində cəmləyir.

Çin, Mərkəzi Asiya və Azərbaycan indi Orta Dəhlizin "Bir kəmər, bir yol" layihəsində rolunu artırmaq üçün daha yaxından işləyirlər ki, burada da məqsəd daha səmərəli ticarət marşrutlarını inkişaf etdirməkdir. Bu, Çinin Azərbaycanın strateji layihəsi olan Zəngəzur dəhlizinə böyük rakursdan baxmasına təkan verir.

Prezident İlham Əliyev aprelin 9-da ADA Universitetində "Yeni dünya nizamına doğru" mövzusunda beynəlxalq forumda deyib: "Biz dəmir yollarımızı müasirləşdirdik, hətta Bakı-Tbilisi-Qars dəmir yolunun Gürcüstandan keçən hissəsinə əlavə investisiya yatırdıq. Hazırda onun yükötürmə qabiliyyəti 5 milyon tondur. Zənnimizcə, Çindən gələn yüklərin bir hissəsi Zəngəzurdan, Zəngilan istiqamətindən keçə bilər".

Bu bəyanat Azərbaycanla Çinin strateji tərəfdaşlığında nəqliyyat dəhlizlərinin təhlükəsizliyinə və fasiləsiz fəaliyyətinə diqqət yetirilməsi fonunda şərh oluna bilər. Nəticə olaraq isə Çinin Zəngəzur dəhlizinə yanaşmaları onun rəqibləri ilə mübarizə kontekstində diqqət çəkir.

İqtisadi-ticari imkanlar, dəhlizlər üzərindən qurulmuş əlaqələr sistemi iki ölkənin müdafiə sahəsindəki əməkdaşlığını da şərtləndirir. İlham Əliyev Forumda Azərbaycanla Çinin müdafiə sahəsində əməkdaşlıqla bağlı dialoqa başladığını xatırladıb.

Azərbaycan ilə Çin arasındakı hərbi əməkdaşlıq hərbi təhsil, texnologiya mübadiləsi və birgə istehsal sahələrində konkret addımlarla müşayiət olunacaq. Bu əməkdaşlıq hər iki ölkənin geosiyasi potensialını gücləndirərək, regional təhlükəsizliyin təmin olunmasına töhfə verəcək.



## ƏLİYEVİN ÇİNƏ SƏFƏRİNİN ARXA FONU

Çinin geosiyasi məcəlləsi Rusiya-Ukrayna müharibəsi, Yaxın Şərqdəki konfliktlərin nəticəsində növbəti dünya nizamını ərsəyə gətirməyi hədəfləyir. Azərbaycanın Çinlə əlaqəli siyasəti onun Çin geosiyasətinin beynəlxalq aləmdəki üstünlüklərinə istinad etməyi prioritetləşdirir. İlham Əliyevin Çinə səfərinin praktikası və məntiqi yalnız bir regionda (Cənubi Qafqaz) müştərək maraq yaratmaq səyləri ilə məhdudlaşmır. Bu səfər beynəlxalq münasibətlər sistemindəki nizamın yenisi ilə əvəzlənməsinə təkan verən proseslərə strateji baxışı aktuallaşdırır.

Yəni İlham Əliyevin Çinə səfəri böyük geosiyasi koda malikdir və Azərbaycanın maraqlarının yeni dünya nizamı konsepsiyalarına uyğunlaşdırılmasını vurğulayır.

Çinin xarici siyasəti onun qlobal əlaqə siyasətinə əsaslanır. Çinin siyasətində 2015-ci ildən bu yana "qonşuluq" kimi terminlər az, "qlobal" və ya "əlaqə" kimi digər coğrafi kateqoriyalar isə daha çox əhəmiyyət kəsb edir. Bu, həmçinin təşəbbüsün coğrafi və sektorlararası əhatə dairəsinin daha güclü şəkildə vurğulandığı "Bir kəmər, bir yol" təşəbbüsü üzrə fəaliyyət planının dərcində də öz əksini tapıb.

İlham Əliyevin yeni səfirlə müzakirə zamanı "Vahid Çin" siyasətinə dəstəyini ifadə etməsi Pekinin Tayvan üzərindəki suverenliyini təmin etməyə üstünlük verdiyini göstərir.

# FÖVQƏLDÖVLƏTLƏR DÜNYANI BÖLÜR

Dünyanın fövqəldövlətlər tərəfindən nüfuz dairəsinə bölünməsi ilk dəfə 1945-ci ildə Yalta konfransında gündəmə gəlib. Əgər 80 il əvvəl dünyanın bölgüsü sistemində ABŞ və SSRİ ilə yanaşı, Böyük Britaniya da var idisə, indi sonuncunu Çin əvəzləyir.





AZƏR NURİYEV

Dünyanın fövqəldövlətlər tərəfindən bölgüsü illərdir müzakirə olunur. ABŞ artıq 80 ilə yaxındır dünyada dəyişilməz liderliyini saxlasa da, Çin son illər onunla yanaşı addımlamağa çalışır. Öz nüfuz dairəsini sürətlə genişləndirir, iqtisadi, siyasi, hərbi güc mərkəzinə çevrilir. "Yaxın on ildə dünyada üç əsas dövlət olacaq, dövrü Rusiya, ABŞ və Çin ələ keçirəcək. Fövqəlgüclər sayəsində reallıqda hər şey yaxşı olacaq, amma Avropa üçün heç də yox", - Macarıstanın Fundamental Hüquqlar Mərkəzinin analitiki Zoltan Koskoviç "X" sosial şəbəkəsindəki səhifəsində bildirib. O qeyd edib ki, ABŞ-Çin-Rusiya triumviratı olacaq, sonra bu, Böyük Dövlətlərin Konsertinə çevriləcək. Yaxın gələcəkdə oxşar statusa yaxınlaşacaq başqa bir ölkə də meydana çıxacaq - Hindistan. 50 ildən sonra dünyada dörd və yeddi super güc olacaq.

**BÖYÜK BRİTANİYANI ÇİN ƏVƏZLƏYİB**

Bu iddia olsa da, hər halda proseslər ona doğru gedir. Dünyanın fövqəldövlətlər tərəfindən nüfuz dairəsinə bölünməsi ilk dəfə 1945-ci ildə - Yalta konfransında gündəmə gəlib. Əgər 80 il əvvəl dünyanın bölgüsü sistemində ABŞ və SSRİ ilə yanaşı Böyük Britaniya da var idisə, indi sonuncunu Çin əvəzləyib. Pekin artıq ABŞ ilə ticarət müharibəsi vəziyyətinə gəlib. Asiyada mövqelərini gücləndirib, Avropada özünə yer edib. Rusiyaya gəldikdə, iqtisadi cəhətdən zəif olsa da, nüvə dövləti kimi mövqeyini qorumağa çalışır. Donald Trampın prezidentliyi onu Ukrayna ilə müharibədə fərqli mövqeyə çıxarıb.

## "NEWSWEEK"İN QALMAQALLI XƏRİTƏSİ

Son günlər dünyanın ABŞ, Çin və Rusiyanın maraq dairəsinə bölünəcəyi barədə xəbərlər artıq mediada da yer alır. Hətta müvafiq xəritə də dərc edilib. Bu iddia ilə dünyaca məşhur "Newsweek" jurnalı çıxış edib. Bəyan edilib ki, hazırda bu üç ölkə arasında şahmat oyununa bənzər mübarizə gedir. Jurnalın bölgüsünə görə, Çinin təsir dairəsi Cənub-Şərqi Asiyanı, o cümlədən Pakistan, Hindistan və Yaponiyanı əhatə edəcək. ABŞ "Monro doktrinasına" görə Şimali Amerikaya, o cümlədən Qrenlandiyaya hakim olacaq. İddia edilib ki, Avropa, Türkiyə və Cənubi Qafqaz ölkələri Rusiyanın təsir dairəsində olacaq. Maraqlı olan odur ki, Mərkəzi Asiya, Yaxın Şərq, o cümlədən Afrika, Avstraliya və Cənubi Amerika ABŞ, Çin və Rusiya arasında bölüşdürülməyib. Müşahidəçilər hesab edib ki, bu məlumat ABŞ-dən çox Rusiya və Çinin maraqlarına cavab verir. Çin və Rusiya onlara aid edilən ölkələri "pay" almağı məmnuniyyətlə qəbul edərdilər. Ancaq Yaponiya və Hindistan heç zaman öz istəkləri ilə Çinin təsir dairəsinə düşməzlər, əksinə, Tokio və Dehli Çinin regionda möhkəmlənməsi təşəbbüslərinə qarşı müqavimətlərini davam etdirirlər.



**"YENİ YALTA" GÖZLƏNTİSİ**

Belə bir bölgünün real olduğunu düşünənlər də var, əks fikirdə olanlar da. Nüfuz bölgüsünün daha çox keçən əsrin 90-cı illərinə aid olduğunu bildirənlər bu qənaətdədirlər ki, hər üç lideri - Donald Tramp, Vladimir Putin və Si Cinpini "hakimiyyət iradəsi və ərazi genişlənməsini əhatə edən ümumi dominantlıq həvəsi" ideologiyası birləşdirir. "Bloomberg" yazır ki, belə ortaq baxışların nəticəsi - dünyanın təsir dairələrinə bölünməsi haqqında razılaşmadır. Ruzvelt və Stalin arasında Yaltada olduğu kimi. "Kreml Putin və Trampın "yeni Yalta" üçün əl sıxacağı ümidi ilə məftun olub", - "Bloomberg" yazıb.

## "BAYDEN QORXAQ İDİ, TRAMP YOX"

"Newsweek" yazır ki, İkinci Dünya müharibəsindən sonra amerikalılar "liberal dünya nizamını" təsbit edib dəstəkləyirdilər və "şovinist imperializmi cilovlayırdılar". "İraq və Əfqanıstan müharibələrindən sonra bu "müstəsnalıq" azaldı. Nəşrə görə Co Bayden həddindən artıq qorxaq idi. İndi 47-ci prezident - Donald Tramp gəldi, o bəyan edir ki, Ukraynada "razılıq" əldə etmək vaxtı çatıb.

Trampın Putinə mart ayında zəng etməsi və bunun ardınca ABŞ-nin rəhbərliyi altında Səudiyyə Ərəbistanında aparılan diplomatiya amerikalı liderin qətiyyətini nümayiş etdirdi. Lakin otuz günlük atəşkəs və Qara dənizdə barışıq haqqında əldə edilmiş razılaşmaya baxmayaraq, döyüş əməliyyatları davam edir. Avropa Beynəlxalq Münasibətlər Şurasının direktor müavini Vesela Çernevaya da hesab edir ki, nizamlama 1945-ci ildə ABŞ, Böyük Britaniya və SSRİ liderləri arasında keçirilmiş və "soyuq müharibə" dövründə Avropanın bölünməsinin əsasını qoymuş Yalta konfransını xatırladır. "Yaltada böyük dövlətlər Şərqi Avropanın gələcəyini həll edirdilər", - o, "Newsweek" jurnalına deyib. "Ukraynasız Ukraynanın gələcəyini həll etmək, Avropasız Avropanın gələcəyini həll etmək kimidir", - deyə əlavə edib.

İngiltərədəki Birminqem Universitetinin beynəlxalq təhlükəsizlik professoru Ştefan Volf isə iddia edir ki, Trampın Ukraynaya təhlükəsizlik zəmanətləri verməkdən imtina etməsi, 1938-ci ildə Münhen konfransında nasist lideri Adolf Hitleri sakitləşdirməyə bənzəyir. Volf hesab edir ki, hazırkı ABŞ prezidentinin təsəvvüründə dünya bir-birinin işlərinə qarışmayan böyük dövlətlərin təsir dairələrinə bölünüb: "Görünür ki, gözlərimiz qarşısında fövqəldövlətlər - Çin və ABŞ dünyanı öz aralarında bölürlər. Hələ tam aydın deyil ki, Rusiya ilə nə olacaq, o, müstəqil oyunçu olaraq qalacaq, yoxsa Çindən daha böyük asılılığa düşəcək".

Bir sözlə, dünya gərgin və maraqlı proseslərə şahidlik edir. Bu proseslərin yekun sonluğu isə hamıya ciddi təsir göstərəcək.

BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR
Tel: (+994 55) 457-02-03 \ (+994 77) 447-47-17 E-mail: kaspiqazeti@kaspi.az

# MƏKTƏBLƏR PUBLİK HÜQUQİ ŞƏXS OLARSA...



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Bu modelə keçid məktəblərə hüquqi baxımdan müstəqil qərar vermək imkanı tanıyacaq. Yəni məktəb, dövlətin müəyyən etdiyi çərçivələr daxilində, həm maliyyə məsələlərində, həm də idarəetmədə daha sərbəst olacaq.

Son illər ölkəmizin ali məktəbləri və bəzi dövlət qurumları Publik Hüquqi Şəxs (PHŞ) olub. İndi də orta ümumtəhsil məktəblərinin PHŞ olması təklif edilir. Elm və təhsil naziri Emin Əmrullayev jurnalistlərə açıqlamasında növbəti mərhələdə prosesin pilot qaydada həyata keçiriləcəyini bildirib. "Hazırda məktəblər Regional Təhsil İdarələrinin tabeliyində fəaliyyət göstərir. Məktəblərin publik hüquqi şəxsə çevrilməsi uzunmüddətli prosesdir. Növbəti mərhələdə bunu pilot qaydada həyata keçirəcəyik. Amma adambaşına maliyyələşdirmə də vacibdir", - deyə nazir qeyd edib.

Maraqlıdır, orta məktəblər PHŞ modelinə keçsə, bunun təhsilimiz üçün hansı önəmi olacaq? Belə bir mexanizm təhsildə keyfiyyətə, məktəb həyatına müsbət təsir göstərə biləcəkmi?

### DƏQİQ SİSTEM VƏ ŞƏFFAFLIQ OLARSA...

Milli Məclisin Elm və Təhsil Komitəsinin üzvü Ceyhun Məmmədov bildirir ki, hazırda ölkəmizdə müəssisələrin PHŞ-yə çevrilməsi istiqamətində müəyyən addımlar atılır: "Orta məktəblərdə bu, ilk növbədə pilot layihə şəklində olmalıdır. Layihəni bir neçə məktəbdə tətbiq edəndən sonra həyata keçirə bilərik. Əgər proses düzgün həyata keçərsə, dəqiq mexanizm və şəffaflıq olarsa, bu, orta ümumtəhsil məktəblərində maaşların artırılmasına, məktəblərin təmirinə, yeni infrastrukturlardan istifadəyə təsir göstərə bilər. Elə etməliyik ki, insanlar bu prosesdən əziyyət çəkməsinlər".



### KAĞIZ ÜZƏRİNDƏ SADƏ BİR DƏYİŞİKLİK KİMİ GÖRÜNSƏ DƏ...

Elm və Təhsil Nazirliyi yanında İctimai Şuranın üzvü Günay Əkbərova hesab edir ki, PHŞ modeli məktəblərə hüquqi baxımdan müstəqil qərar vermək imkanı tanıyır. Yəni məktəb, dövlətin müəyyən etdiyi çərçivələr daxilində, həm maliyyə məsələlərində, həm də idarəetmədə daha sərbəst olur: "Bu, kağız üzərində sadə bir dəyişiklik kimi görünsə də, praktikada məktəbin daxili həyatını ciddi şəkildə dəyişdirə bilər. Əgər məktəb özü qərar verə bilirsə, bu o deməkdir ki, hansı layihəyə pul ayıracağını, hansı müəllimi işə götürəcəyini və ya hansı ehtiyacları prioritet sayacağını özü müəyyənləşdirir. Bu çeviklik məktəbin gündəlik fəaliyyətinə canlılıq gətirə, onu daha fəal və təşəbbüskar edə bilər. Bu model məktəbin cəmiyyətlə münasibətinə də müsbət təsir göstərər – valideynlərin, yerli icmanın səsi artıq real qərarvermədə eşidilə bilər". İŞ üzvünün fikrincə, hər yeni model kimi, PHŞ yanaşmasının da uğuru onun necə tətbiq olunacağından asılıdır: "Bu, sadəcə "status" dəyişməkdən ibarət deyil. Məktəbin rəhbərliyi, müəllim kollektivi, valideynlər bu sistemin fəlsəfəsini anlamaq və qəbul etmək üçün hazır olmalıdırlar. Əks halda, bu muxtariyyət effektivlik deyil, əksinə, qarışıqlıq və bərabərsizlik yarada bilər.

## "Məktəbin büdcəsi şagird sayına uyğun hesablanacaq"

G.Əkbərovanın fikrincə, PHŞ yanaşmasının daha təsirli işləməsi üçün adambaşına maliyyələşmə modeli çox mühüm rol oynaya bilər. Belə ki, bu modeldə məktəbin büdcəsi şagird sayına uyğun hesablanır və hər bir şagirdin arxasınca gələn vəsait məktəbi daha məsuliyyətli və diqqətli işləməyə sövq edir: "Əgər məktəb keyfiyyətli təhsil verirsə və valideyn etibar edirsə, bu, onun büdcəsinə də müsbət təsir edir. Beləliklə, təhsil keyfiyyəti ilə maliyyə imkanları arasında birbaşa əlaqə qurulur. Ən vacib məqamlardan biri isə budur: PHŞ modelinə keçid təhsildə böyük bir dönüş nöqtəsi ola bilər. Bu, sadəcə struktur islahatı deyil. Bu yanaşma tətbiq olunsa, müəllimlərin rolu güclənə, onların yaradıcılığı üçün şərait açıla bilər. Məktəblər arasında sağlam rəqabət yaranar – bu da ümumilikdə təhsilin keyfiyyətini qaldıra bilər". İŞ üzvü hesab edir ki, bu dəyişiklik tələsik və geniş miqyasda yox, mərhələli şəkildə aparılmalıdır: "Əvvəlcə pilot məktəblər seçilər, onlarda bu model sınaqdan keçirilər, nəticələr analiz edilər. Paralel olaraq, qanunvericilik dəstəyi, idarəetmə təlimləri, ictimai maarifləndirmə tədbirləri həyata keçirilməlidir. Valideynlərin, müəllimlərin və ümumiyyətlə cəmiyyətin bu prosesi anlaması və dəstəkləməsi olduqca vacibdir. Bunu yalnız səmimi niyyət, peşəkar yanaşma və davamlı ictimai dialoqla həyata keçirmək mümkündür".

### TƏHSİLDƏ SƏMƏRƏLİLİYİN ARTIRILMASINDA ƏHƏMİYYƏTLİ ADDIM

"Azərbaycanda təhsil müəssisələrinin publik hüquqi şəxs statusuna keçməsi müasir idarəetmə modelinin başlanğıcı sayıla bilər", - deyə Əməkdar müəllim, Binəqədi rayonu 3 nömrəli tam orta məktəbin direktoru Almaz Həsrət bildirir: "Bir çox xarici ölkələrdə təhsil müəssisələri publik hüquqi şəxs statusu ilə fəaliyyət göstərir. Bunun bir neçə müsbət tərəfi var. İlk növbədə təhsildə səmərəliliyin artırılması istiqamətində əhəmiyyət daşıyacaq. "Publik hüquqi şəxslər haqqında" qanunda yazılıb ki, publik hüquqi şəxs dövlət və ya bələdiyyə tərəfindən yaradılan, ictimai funksiyaları yerinə yetirən, lakin maliyyə və idarəetmə baxımından muxtariyyətə malik hüquqi qurumdur. Məktəblərə publik hüquqi şəxs statusu verilərsə, o zaman həmin müəssisələrin müstəqilliyi artar və idarəetmə baxımından daha operativ qərarlar qəbul etmə iqtidarında olacağıq". A.Həsrət hesab edir ki, bu modeldə direktorlar öz qərarlarını daha müstəqil verə biləcəklər: "Məktəbinə uyğun maddi-texniki baza təminatını direktorlar sərbəst edə biləcəklər. Maliyyə azadlığı və gəlir əldə etmək hüququna malik ola biləcək məktəb rəhbərləri dövlət büdcəsindən əlavə, eyni zamanda məktəbdaxilində tətbiq edəcək layihələr, icarə - yeməkxana, dərnəklər sayəsində əlavə gəlir mənbəyi əldə edə bilərlər. Bunun reallaşdırılması üçün ilk növbədə təmiz, dürüst, şəffaf idarə edən heyət olmalıdır".




Fotolar: Rüfət Mikayılov - Global Photostock

# TAKSİDƏ TƏHLÜKƏSİZLİYİMİZİ NECƏ QORUYAQ?

Vətəndaşların taksilərdə üzləşdikləri problemlər davam edir. Yol-nəqliyyat hadisələri, sürücülərin qeyri-adekvat davranışları, sürət həddinin aşılması hər bir sərnişinin üzləşə biləcəyi problemlərdəndir.



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az



Foto: Sabir Məmmədov - Global Photostock

Heydər Əliyev prospektində baş vermiş taksi qəzası cəmiyyətdə geniş müzakirələrə səbəb oldu. Hadisədən sonra sosial şəbəkələrdə və mediada taksi xidmətləri ilə bağlı narazılıqlar bir daha gündəmə gəldi. Ümumiyyətlə, son dövrlərdə ictimai nəqliyyat, xüsusilə taksi xidmətlərindən istifadə zamanı yaşanan bəzi xoşagəlməz hallar cəmiyyətdə narahatlıq doğurur. Yol-nəqliyyat hadisələri, sürücülərin qeyri-adekvat davranışları, sürət həddinin aşılması və digər problemlər taksidə sərnişin təhlükəsizliyi məsələsini gündəmə gətirir. Bəs taksidə təhlükəsizliyimizi qorumaq üçün hansı addımları atmalı, necə davranmalıyıq?

Məlumdur ki, mobil tətbiq vasitəsilə taksi sifariş etdikdə, hər dəfə gedişi bitirdikdən sonra tətbiqdə mütləq sürücünün qiymətləndirilməsi tələb olunur. Bu qiymətləndirmədən istifadə edən də var, etməyən də. Sürücü tələblərə cavab verməsə belə, beş balla qiymətləndirən də var, ideal sürücüyə üç bal verən də... Maraqlıdır, qiymətləndirmənin əhəmiyyəti nədir?

### EYNİ SÜRÜCÜ İLƏ BAĞLI BİR NEÇƏ MƏNFİ RƏY TOPLANARSA...

Taksi fəaliyyətini həyata keçirən “Bolt” şirkətindən “Kaspi” qəzetinə bildirildi ki, qiymətləndirmə xidmət keyfiyyətinin artırılmasını təmin edən əsas alətdir: “Əgər sürücünün davranışı ilə bağlı şikayət daxil olub və nəticədə o, platformadan uzaqlaşdırılıbsa, bu, yüzlərlə potensial təhlükəli səfərin qarşısının alındığı deməkdir. Nəticə böyük ölçüdə sürücünün özündən asılıdır. Bəzi insanlar xidmət göstərmək üçün kifayət qədər uyğun deyillər və bu cür şəxslərin istifadəçi rəylərinə əsasən sistemdən kənarlaşdırılması tamamilə normaldır. Aşağı bal alan sürücülər zərurət olduqda əlavə təlimlərə cəlb olunur və ya xəbərdarlıq alırlar. Aşağı reytinqlər xidmət keyfiyyəti və sürücü davranışı ilə bağlı problemlərin erkən mərhələdə aşkarlanmasına kömək edir. Əgər sərnişin bir, iki və ya üç bal verərsə, sistem avtomatik olaraq səbəb seçməyini tələb edir (məsələn: sürücünün kobud davranışı, avtomobilin təmiz olmaması və s.). Bu məlumatlar şirkətin keyfiyyət komandası tərəfindən izlənilir və eyni sürücü ilə bağlı bir neçə mənfi rəy toplanarsa, müvafiq tədbirlər görülür”.

### ƏGƏR SƏRNİŞİN SADƏCƏ HÖRMƏT XATİRİNƏ BEŞ BAL VERİRSƏ...

Şirkətin məlumatına görə, əgər sərnişin bir sürücüyə aşağı bal verib və səbəb qeyd edibsə, bu məlumat sistemdə yadda saxlanılır və gələcəkdə eyni sürücünün həmin sərnişinə təyin olunma ehtimalı azalır: “Adekvat olmayan, yəni real performansa uyğun olmayan ballar müəyyən mənfi nəticələrə səbəb ola bilər. Məsələn, əgər sərnişin sadəcə hörmət xatirinə beş bal verirsə, problemli halların vaxtında aşkarlanması çətinləşir. Əgər aşağı keyfiyyətli xidmət göstərən sürücü gerçək vəziyyəti əks etdirməyən yüksək ballar alırsa, sistemdə yüksək reytinqli istifadəçi kimi görünür. Beləliklə, qiymətləndirmə sistemi öz funksionallığını itirir, çünki sürücülər nə düzgün geribildirim ala, nə də xidmətlərini təkmilləşdirmək üçün bu məlumatdan faydalana bilirlər”.

### QEYRİ-QANUNİ TAKSİ SÜRÜCÜLƏRİNƏ GÖRƏ KÜLLİ MİQDARDA CƏRİMƏLƏNİRLƏR

Nəqliyyat eksperti Eldəniz Cəfərov isə bildirdi ki, vətəndaşlar taksi sifarişini əsasən mobil tətbiq vasitəsilə edirlər, bəzi hallarda sifarişə başqa sürücü gəlir: “Yəni, tətbiqdə göstərilən şəxslə sifarişə gələn eyni olmur. Bu, artıq sərnişində şübhə doğurmalıdır. Anlamalıdır ki, əgər sifariş etdiyi maşın gəlmirsə, yaxud sürücü başqadırsa, demək ki, burada bir problem var. Bu o deməkdir ki, hazırda taksini idarə edən şəxs taksi fəaliyyətindən daimi və ya müvəqqəti kənarlaşdırılıb, ona blok qoyulub. Burada artıq sərnişin təhlükəsizliyinə güvənmirsə, həmin taksidən istifadə etməməlidir. Güvənmədikdə, vətəndaş ilk növbədə çağırdığı taksi operator şirkətinə məlumat verməlidir ki, bununla bağlı tədbir görülsün. Çünki taksi operator şirkətləri də qeyri-qanuni işləyən sürücülərə görə külli miqdarda cərimə oluna bilər. Yeni taksi qaydalarına görə, dövlət qurumu həmin taksi şirkətini 20 min manatdan başlayan məbləğlə cərimələyir. Bu səbəbdən taksi şirkətləri də maraqlıdır ki, qeyd olunan maşın və qeyd olunan şəxs çağırışa gəlsin”.

## Sürücü nalayiq hərəkət edərsə...

Mütəxəssis vurğulayır ki, əgər taksidə sürücü nalayiq hərəkət edərsə, bu zaman sərnişin Daxili İşlər Nazirliyinin 102 qaynar xəttinə zəng etməlidir: “Aldadılma məsələsi varsa, pulun qalığı verilmirsə, yaxud əvvəlki sövdələşmə qiymətindən daha bahalı qiymət təklif olunursa, bu zaman sərnişin həm taksi şirkətinə, həm də müvafiq dövlət qurumuna müraciət edə bilər”.

E.Cəfərov vurğulayır ki, vəziyyət o yerə gəlib ki, peşəkar sürücülər işləyə bilmirlər: “Əyləncə xatirinə taksi sürənlər peşəkar sürücülərin işinə mane olurlar. Neqativ hallar çoxaldıqda, insanlar peşəkarlara da etibar etmir. Biz belə sürücülərdən xilas olmalıyıq”.



Eldəniz Cəfərov

## Sürücülərdən alınan yüksək komissiya

Taksi şirkətlərinin probleminə gəldikdə isə, mütəxəssis bildirir ki, taksi sahəsində ən ciddi problem taksi şirkətlərinin qanunvericiliyə tam əməl etməməsidir: “Bu problemlər taksi sürücülərinin əməyinin istismar edilməsi, şirkətlərin sürücülərdən aldığı yüksək komissiyalardır. Bu məsələlər müvafiq dövlət qurumları tərəfindən həll edilməlidir. Xarici taksi şirkətləri qarşısında məsələ qaldırmalıdırlar ki, onların sürücülərdən aldığı yüksək komissiya haqqı azaldılsın”.



### “141”Ə MÜRACİƏT EDİN

Azərbaycan Yerüstü Nəqliyyat Agentliyindən (AYNA) isə bildirildi ki, sərnişinlərdən taksilərlə bağlı qarşılaşdıqları müxtəlif problemlərə dair AYNA-nın “141” Çağrı Mərkəzi və ya sosial şəbəkə hesabları üzərindən müraciət etmələri, nəqliyyat vasitəsinin dövlət qeydiyyat nişanı barədə məlumat vermələri xahiş olunur.

“MƏN HEÇ VAXT HEÇ KİMDƏN MƏSLƏHƏT ALMAMIŞAM, HEÇ KİM DƏ MƏNƏ MƏSLƏHƏT VERMƏYİB”

# “İNSANI ŞƏRƏFLƏNDİRƏN ONUN ZƏHMƏTİDİR”



HAZIRLADI

Təranə Məhərrəmova
taranamaharramova@kaspi.az

**Xalq artisti Alim Qasımov:** “Hər çıxışım mənim üçün imtahandır. Xanəndəlik odur ki, mütləq xalqın imtahanından keçməlisən. Tarix özü hər bir sənətkarı seçir və yadda saxlayır”

“Səhnədə mənim yanımda həmişə musiqiçilər olub. İndi burada tək-tənha dayanmışam, bu, mənim üçün həddindən artıq çətindir. Hər işin öz çətinliyi var, eləcə də bu işin. Düzü, gələndə bir az tərəddüd edirdim. Mənimki odur ki, bir-iki mahnı oxuyub gedim. Amma qismət oldu ki, bu gözəl uşaqların nurlu sifətini görürəm...” Görkəmli xanəndə, Xalq artisti Alim Qasımovun “Məktəbdə” görüşü yağışlı, tufanlı havaya təsadüf etdi.

Bakı Şəhəri üzrə Təhsil İdarəsi ilə “Kaspi” qəzetinin birgə layihəsinin qonağının zəhmət və istedaddan doğan həyat hekayəsi İlyas Əfəndiyev adına Elitar Gimnaziyanın kollektivi üçün layiqli örnək oldu.

### “MƏKTƏB İLLƏRİNDƏ TƏDBİRLƏRDƏ ÇIXIŞ EDİRDİM”

“Məktəb illərim yadıma düşdü. Məktəbə gələndə bizə əvvəl idman elətdirir, sonra sinfə buraxırdılar” - deyə Alim Qasımov xatırladı: “Biz sizin kimi təmirli, müasir məktəbdə oxumamışıq. Şamaxı rayonunun Nabur kəndindəki məktəbdə oxumuşam. Məktəbimiz kənd tipli olub. Amma şagird şagirddir, müəllimləri görəndə biz də ayağa qalxırdıq. Aramızda yaxşı oxuyanlar da vardı. Mən bir az şuluq uşaq olmuşam, oxuyub-yazmağım da yaxşı deyildi. Uşaqlıq dövrü idi, düz hərəkət etməyəndə müəllimlərdən bir-iki yaxşı şillə də yemişəm. Nəğmə dərsindən “5” alırdım. Ədəbiyyat dərsi olanda sevinirdim ki, şeiri əzbərləyib “5” alım. O biri dərslərdən “3” verirdilər. İndi etiraf edirəm, yaxşı şagird olmamışam. Uşaqlıqda yüngülvarı səsim vardı. Elə o vaxtdan başlayaraq indiyə qədər oxuyuram. Məktəb illərində tədbirlərdə çıxış edirdim. Müəllimlər də mənə qiymət yazırdılar. Amma şərt instituta daxil olmaq və “5” almaq deyil. Şərt odur ki, Allah verən qabiliyyətin üstünə bir az da elm əlavə edəsən. Cəbri, hesabı bilmək lazımdır, çünki həyat bunları sizdən istəyəcək. Mənim kimi “savadsız” olmaqdansa, oxumağınız məsləhətdir. Vacib deyil professor olasan, amma hansı işin qulpundan yapışacaqsansa, bu gün qazandığınız elm sizə mütləq orada lazım olacaq. Heç olmasa, buna görə oxumalısınız...”

### “BU, İLAHİ BİR MUSİQİDİR”

Xanəndə dünyada tanıtdığı muğamımızın fəlsəfəsindən danışaraq “bu musiqiyə qulaq asanda insanı təmizliyə aparır, dinləyicinin əhval-ruhiyyəsi düzəlir” dedi: “Ölkəsindən, dilindən və məzhəbindən asılı olmayaraq bu musiqi qəlbə toxuna bilir. Bu, ilahi bir musiqidir. Hərdənbir adam darıxır. Baxırsan ki, hər şey, iş-güc normaldır, amma darıxırsan. Musiqiyə, gözəl bir səsə qulaq asırsan və görürsən ki, rahatlaşdın. Şairlər deyən kimi - musiqi doğrudan da ruhun qidasıdır. Bizim ifaçılar və musiqiçilər dünyanın hər bir yerində konsertlərdə oxuyurlar. Həmin auditoriyalarda onların nə dilini, nə sözlərini bilirlər, amma musiqinin ahəngi dinləyənləri başqa aləmə aparır. Özüm bunun çox şahidi olmuşam. Dünyanın 70-80 faiz ölkəsində konsertlər vermişik. Konsertdən sonra ağlaya-ağlaya bizə yaxınlaşanları görmüşük”. Muğam ifaçısı bir xatirəsini də danışdı: “Xaricdə konsertlərin birində ifamızdan sonra bir qadın yaxınlaşıb nəsə dedi. Gördü ki, mən dili bilmirəm, salfetin üstündə ulduz şəkilləri çəkdi. Yəni sizin musiqiniz bizi göylərə apardı. Musiqinin dili yoxdur, birbaşa ruha qida verir. Dərs oxumaqla bərabər, xalq musiqisinə, muğamlara qulaq asın ki, mənəviyyatınız qidalansın. İndiki yüngül musiqilərlə oynaya bilərsiniz, amma dinləmək üçün özünüzü xalq mahnılarına, ağır musiqilərə kökləyin, çünki bu musiqilərdə mənəviyyat var. Bu musiqi insanı düşündürür. Muğam demək olar ki, musiqilərin ağsaqqalıdır”.

### HƏR ŞEYİN ÖNÜNDƏKİ ZƏHMƏT

“Çox adam muğam oxuyur, amma hər xanəndə muğamın Alimi ola bilmir...” fikirləri isə xanəndəyə keçmiş günlərini xatırlatdı: “Mən fəhlə işlədim. Kənddə kəndlilər nə iş görürsə, onların hamısını gördüm. Sonra taksidə çalışdım, montyor, qarovulçu işlədim. Evləndim, bir uşağımız da dünyaya gəldi. Əlimdən isə heç bir iş gəlmirdi. Bir az sürücülük bacarırdım. Mənə bir köhnə “Moskviç” maşını verdilər. Hər gün o maşının altına yıxılıb o hissəsini-bu hissəsini düzəldirdim. Sahibi də deyirdi ki, pul qazan mənə də ver. Deyirdim, “ay qardaş, bu heç özü yerimir, mən bununla pulu necə qazanım?” Bir gün qardaşıma verdim ki, aparıb maşını təhvil versin. Ondan sonra bekar qaldım. Amma toyda-mağarda oxuyurdum. Kim eşidirdisə “get bu sənətin dalıyca” deyirdi. Atamın da yaxşı səsi vardı, zurnanın müşayiəti ilə oxuyurdu. Qayınanam bir az dünyagörüşlü xanım idi. İşsiz olduğumu görüb Səyavuş Aslandan xahiş edib ki, bunu mütləq Asəf Zeynallı adına Musiqi Məktəbinə düzəlt. O da Vasif Adıgözəlovdan xahiş edir. Məni o məktəbə qəbul etdilər. Sinfə gəldim, gördüm burada elə güclü səslər var. “Mən bura gəldim ki, bir tikə çörək pulu qazanım, bunların yanında pul qazana bilərəm?” - deyə naümid gəlib-getdim. Sonra “daha getmək istəmirəm” deyə evdə bildirəndə “döz, camaata nə deyərik?” söylədilər. Sonra məni məktəbdə müsabiqəyə yazdılar. O vaxtdan öz üzərimdə işləməyə başladım, qəzəlləri təkrar-təkrar öyrəndim. Müsabiqədən çıxan hər kəs dedi ki, birinci yer sənindir. Sonra doğrudan da ciddi məşğul olmağa başladım. Səs çox güclü ola bilər və hamıda da səs ola bilər. Amma səsin şirinliyi bir balaca Allah tərəfindən verilməlidir. Səsin şirinliyi olandan sonra onun üzərinə hansı musiqini əlavə eləsən insanların qəlbinə yol tapır. Bizim çox şirin səsli xanəndələrimiz var. Onların səsini eşitdikcə kim olduqlarını dərhal bilirik. Mən çox çalışqan oldum. Gördüm ki, səslərinə heyran olduğum tələbələr əllərində dəftərdən oxuyur. Mən həmin dəftəri onlardan qabaq öyrənib oxudum. Çox əziyyət çəkdim. Keçmiş xanəndələrə, köhnə plastinkalara qulaq asmağa başladım. Başa düşdüm ki, hər şeyin önündə zəhmət durur. Sənət ağır olduğu üçün sənətdir. İnsanı şərəfləndirən onun zəhmətidir. Hansı sahədə olursan ol, mütləq zəhmət çəkib onun peşəkarından olmalısan. Ürəklə çalışanda, zəhmət çəkəndə Allah o əziyyətin mükafatını verir...”

> “Hansı sahədə olursan ol, mütləq zəhmət çəkib onun peşəkarından olmalısan. Ürəklə çalışanda, zəhmət çəkəndə Allah o əziyyətin mükafatını verir...”

### 40 İLİN İMTAHANI

Xanəndə muğam sənətinin çətinliyindən də danışdı: “Bu sənət çox əziyyətli və çətindir. Düzdür, şərafəti var, amma bu şərafətin arxasında nə qədər zülm, həyəcan, qorxu var. Bunu bir Allah, bir də onu çəkən bilir. Bir imtahan verib bir yerə qəbul olursan, amma bizim sənətin hər anı imtahandır. Hər səhnəyə çıxanda imtahan verirsən. Mən 40 ildir oxuyuram, deyirəm “yenə imtahan?” Çünki tamaşaçı gəlib həmişə sənin ifandan zövq aldığı anı yaşamaq istəyir. Hər çıxışım mənim üçün imtahandır. Xanəndəlik odur ki, mütləq xalqın imtahanından keçməlisən. Tarix özü hər bir sənətkarı seçir və yadda saxlayır”.

### “YARATDIĞIN SƏNƏT İLK NÖVBƏDƏ ÖZÜNƏ ZÖVQ VERMƏLİDİR”

A.Qasımov ifaçıya ilham verən məqamlardan da danışdı: “Uşaqlıqda, cavanlıqda oxuyursan, tədricən sənətkar olursan. Müəllim öyrədir, oxuyursan, tədbirlərdə, toylarda, konsertlərdə çıxış edirsən. Bir az dərinə gedəndə, o sənətlə ki səndə həmahəng bir əhval-ruhiyyə yaranır - onda tamaşaçı da yadından çıxır, sənət də bir yanda olur. İki qanadlı bir quş kimi - həm sənətin, həm istedadın uçur və mütləq ilham alırsan. İnsan özündən zövq almasa, sənət uzağa getməz. Yaratdığın sənət ilk növbədə özünə zövq verməlidir. Mən artıq “tamaşaçılar qulaq asdılar-asmadılar, razıdırlar-razı deyillər” məqamını keçmişəm. Artıq özüm üçün oxuyuram. Əgər orada bir hal yaşamışamsa, xoşbəxt olub gedirəm. O anı tutmamışamsa, demək yaşamamışam. Onda özümü pis hiss edirəm. Əsas odur ki, ilham almağa Allahımız var. “Məni bu məqamdan şərəfli çıxar”, - deyə Allaha yalvara-yalvara sənətinə davam edirsən...”

Xanəndə xalça üzərində oxuması ilə bağlı “Alimin ruh halı, yoxsa imici” kimi tamaşaçıları maraqlandıran suala da aydınlıq gətirdi: “Mən heç vaxt heç kimdən məsləhət almamışam, heç kim də mənə məsləhət verməyib. Bir taxta parçası kimi axan çayın üzərinə düşmüşəm. O çay məni o dağ-daşa, dərələrə vura-vura gətirib hazırda bura çıxarıb. Yerdə oturub oxumağımız Fransanın bir şəhərində baş tutan konsertdən başladı. Gəlib gördük ki, səhnədə yerdə xalça səriblər. “Şərqdən gələn musiqiçilər yerdə oturur” deyə düşünüblər. Əvvəlcə xoşumuza gəlmədi, həmişəki kimi stulda oturmaq istədiyimizi bildirdik. Onlar stul arxasınca gedəndə “gəlin, oturub yoxlayaq”, - deyə musiqiçilərimə dedim. Gördüm ki, xalça üzərində oturmaq çox rahatdır. Tar-kaman ifaçıları da razı qaldılar. O gündən yerdə oturduq. Xalçanın üzərindən bizi göyə qaldıranda ağladım ki, şükür sənə, ya rəbbim, biz yerdə - xalçanın üzərində otururduq, sən bizi göyə qaldırdın!”





Fotolar: Tapdıq Abdullayev/Global Media Group

## Şuşadakı göz yaşı

Xanəndə Şuşada, Cıdır düzündə oxumasını qürurla xatırladı: “Şuşada oxuyanda istər-istəməz gözümüzdən yaş da gəldi. İllərdir deyirdik ki, Qarabağ, Şuşa alınsın, orada konsertlər verək. Şükür Allaha ki, o torpaqlarda konsertlər, tədbirlər, festivallar keçirilir. Təklif var ki, yaxınlarda keçiriləcək festivalda yenə oxuyaq. Həmişə vətənimiz bütöv, xalqımız da xoşbəxt olsun!”

### KİM ZƏHMƏT ÇƏKƏCƏKSƏ...

Xanəndə hazırkı gənclərin zövqü məsələsinə də toxundu: “Yoldan keçəndə, küçə-bacada gənclərin mənə ehtiramını görəndə başa düşürəm ki, cavanlar musiqiyə, sənət adamlarına hörmət edirlər. Bir çox konsertlərdə də cavanları görmüşəm. Düzdür, muğam, qəzəllər çox ağır janrdır, ancaq əgər qəlbinə yatırsa, demək, başa düşürsən. Əsas qəlbə yatmaqdır. Hansı musiqi sənin qəlbini şad edir, könlünü açırsa, demək ciddi musiqidir. Ona görə dinləmək üçün istər dünya, istər Azərbaycanın ciddi musiqisinə özünüzü kökləmək lazımdır”.

Xanəndə gənclərə tövsiyəsini də əsirgəmədi: “Hansı sahədə olsanız, əziyyətiniz bir gün əlinizdən tutacaq. Həyatda əziyyətlər çəkməmək üçün pis əməllərdən uzaq olmalısınız. Müəllimlərinizi, valideynlərinizi dinləmək mütləq lazımdır. Kim elm yolunu tutursa, yolu açıq olsun. Həmçinin çox əhəmiyyətli sənətlər də var. Kim zəhmət çəkəcəksə, ürəkdən zövq alıb işə başlayacaqsa, orada həmişə şərəfli də olacaq, ruzisi də olacaq”. Xanəndə “indiki dövrdə mobil telefonlar, sosial şəbəkələr insanları bir az özündən ayırıb”, - deyə narahatlığını da bildirdi: “Mənim də telefonda bildiyim qəzəllər var. Elə bilirəm ki, o qəzəlləri əzbərdən bilirəm, amma görürəm ki, bilmirəm. Bu, bir az adamı oxumaqdan yayındırır. Ümid olursan ki, internetdə yazacaqsan, çıxacaq. Bu, bir tərəfdən yaxşıdır, amma oxumaq, öyrənmək öz beyninizlə olmalıdır. Texnologiyalardan çox asılı olmamalı, arzuladığınız sənətin dərinliyinə getməlisiniz”.





## “SOCAR Energy School” proqramı başa çatıb

Azərbaycan Dövlət Neft Şirkətinin törəməsi olan “SOCAR Türkiyə”nin Sabancı Universitetinin İdarəçi İnkişafı Bölməsi (EDU) ilə əməkdaşlıq çərçivəsində həyata keçirilən “SOCAR Energy School” proqramı başa çatıb. “Report” xəbər verir ki, bu barədə “SOCAR Türkiyə”nin “X” sosial şəbəkə hesabında bildirilib.

Məlumata görə, enerji sektorunun müxtəlif sahələrinə fokuslanan doqquz həftəlik intensiv təlim proqramını uğurla başa vuran iştirakçılara sertifikatlar təqdim olunub. Tədbirdə Türkiyənin enerji və təbii sərvətlər nazirinin müavini Ahmet Berat Çonkar, Nazirliyin Xarici Əlaqələr Baş İdarəsinin rəhbəri Öztürk Selvitop, Sabancı Universitetinin rektoru professor Yusuf Leblebici və “SOCAR Türkiyə”nin baş icraçı direktoru Elçin İbadov iştirak ediblər.

Tədbirdə çıxış edən rəsmi şəxslər enerji sektorunda bilik əsaslı transformasiyanın əhəmiyyətini vurğulayıblar. Qeyd olunub ki, bu cür təşəbbüslər sahədə peşəkar kadr potensialının gücləndirilməsinə töhfə verir və enerji sektorunun davamlı inkişafında mühüm rol oynayır.

# İNTENSİV YAĞINTILARIN FƏSADLARI ARADAN QALDIRILIR

Son günlərdə müşahidə edilən kəskin yağışlı hava şəraitində ölkə üzrə 800-ə yaxın sığorta hadisəsi qeydə alınıb. İntensiv yağıntılar səbəbindən Quba, Ağsu, Şamaxı və İsmayıllı rayonları ərazisində ekzogen-geoloji proseslərin nisbi aktivliyi müşahidə edilir.



F.ABASOĞLU

Aprelin 15 və 16-da ölkə ərazisində hava şəraitinin kəskin dəyişməsi çoxsaylı fəsadlara yol açıb. Bakıda və Abşeron yarımadasında leysan, regionlarda intensiv yağış, dağlıq rayonlarda qar yağıb. Çaylarda sululuq artıb, sel keçib.

### 800-Ə YAXIN SIĞORTA HADİSƏSİ QEYDƏ ALINIB

“Azərbaycan Sığortaçılar Assosiasiyası” İctimai Birliyindən verilən məlumata görə, bu həftə ərzində kəskin yağışlı hava şəraitində ölkə üzrə 800-ə yaxın sığorta hadisəsi qeydə alınıb. Nəticədə sığortalanmış avtonəqliyyat vasitələrinə, o cümlədən daşınar və daşınmaz əmlaklara zərər dəyib. Baş vermiş hadisələrlə bağlı səkkiz sığorta şirkətinə ümumilikdə 769 müraciət daxil olub. Bu müraciətlərin 512-si “Avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası” növü, 157-si “Daşınmaz əmlakın icbari sığortası” növü, 77-si “Kasko” sığorta növü, 21-i “Əmlakın yanğından və digər risklərdən sığortası” növü üzrə baş vermiş hadisələrlə əlaqədar olub. Bundan əlavə, “Fərdi qəza sığortası” və “Daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin icbari sığortası” növlərinin hər biri üzrə isə bir hadisə qeydə alınıb.

### ÜMUMİ ZƏRƏR MƏBLƏĞİ BİR MİLYON MANATI ÖTƏCƏK

Qurumdan bildirilib ki, 294 hadisə üzrə ehtimal olunan zərər məbləği 241 min 30 manat müəyyən olunub. Qalan 475 hadisə üzrə isə zərər qiymətləndirməsi prosesi davam edir. Hazırda daxil olmuş bütün müraciətlərə dair hadisələr tənzimləmə və zərər qiymətləndirilməsi mərhələsindədir və sığorta hadisəsi kimi tanınan hər bir hadisə üzrə sığorta ödənişlərinin həyata keçirilməsi nəzərdə tutulur.

Hesabat dövrü ərzində sığorta şirkətlərinə daxil olmuş müraciətlər üzrə hadisələrin 70%-i paytaxt Bakıda, 30%-i isə respublikanın digər bölgələrində qeydə alınıb.

### EKZOGEN-GEOLOJİ PROSESLƏRİN DİNAMİKASI ARTIB

Kəskin hava şəraiti bəzi sürüşmə zonalarında da aktivliyə səbəb olub. Geoloji Kəşfiyyat Agentliyinin sədri Əli Əliyev Oxu.Az-a bildirib ki, son günlər ölkə ərazisində müşahidə olunan yağıntılı hava şəraitindən sonra bəzi ərazilərdə ekzogen-geoloji proseslərin dinamikasında nisbi aktivlik müşahidə olunsa da, bu proseslərin ümumi fonu stabil xarakterlidir”. Onun sözlərinə görə, son günlər intensiv yağıntılar səbəbindən Quba, Ağsu, Şamaxı və İsmayıllı rayonları ərazisində ekzogen-geoloji proseslərin nisbi aktivliyi qeydə alınıb ki, bu da bilavasitə mövsümi xarakterli iqlim faktorları ilə əlaqəlidir. Hazırda Geoloji Kəşfiyyat Agentliyinin mütəxəssisləri ilə birgə aidiyyəti qurumlar proseslərin inkişaf dinamikasını qiymətləndirirlər.

### Fəsadlar aradan qaldırılır

Fövqəladə Hallar Nazirliyindən bildirilib ki, görülən zəruri və təxirəsalınmaz tədbirlər nəticəsində bir çox ərazilərdə su basmış yerlərdən suyun çəkilərək kənarlaşdırılması işləri yekunlaşıb. Hazırda bəzi istiqamətlərdə su basmış yerlərdən suyun çəkilərək kənarlaşdırılması və digər zəruri təhlükəsizlik tədbirlərinin görülməsi davam etdirilir. Əməliyyat nəticəsində su basmış yerlərdə köməksiz vəziyyətdə qalmış 33-ü uşaq olmaqla, ümumilikdə 135 nəfər təxliyə olunub. Qeyd edək ki, yaranan fəsadların aradan qaldırılması tədbirlərinə Fövqəladə Hallar Nazirliyinin 450 nəfərə yaxın şəxsi heyəti və 150-yə yaxın texnikası cəlb edilib.

Qeyri-sabit hava şəraiti ilə əlaqədar olaraq təcili tibbi yardıma müraciət edənlərin sayı da açıqlanıb. TƏBİB-dən bildirilib ki, ölkə ərazisində müşahidə olunan qeyri-sabit hava şəraiti ilə əlaqədar olaraq Respublika Təcili və Təxirəsalınmaz Tibbi Yardım Mərkəzinə 60-dan çox müraciət daxil olub.

# “NAR” YENİ PEŞƏ TƏLİMİNƏ BAŞLADI

Sərfəlilik strategiyası ilə yanaşı, inklüzivlik və bərabər imkanların təşviqi istiqamətində fəaliyyətini davam etdirən “Nar” “Karlara Dəstək” İctimai Birliyi ilə birgə nitq və eşitmə məhdudiyyətli şəxslər üçün modelyer-dizayner peşəsi üzrə ikinci peşəkar təlim mərhələsinə start verib. Bu dəfə təlimlərdə 18-35 yaş aralığında 10 nəfər iştirak edir.




Təlim proqramı iştirakçıların yaradıcılıq bacarıqlarını inkişaf etdirməklə yanaşı, onların əmək bazarına inteqrasiyasına və müstəqil fəaliyyət imkanlarının genişlənməsinə dəstək olmağı hədəfləyir. İştirakçılar modelyer-dizayner sahəsində praktik vərdişlər – parça seçimi, eskizlərin hazırlanması və tikiş prosesləri ilə yanaşı, nəzəri biliklər də əldə edəcəklər. Bu təlimlər onların gələcəkdə ixtisaslaşmış sahədə uğur qazanmaları üçün möhkəm baza yaradır.

Cəmiyyətdə bərabər imkanların yaradılmasını əsas məqsədlərindən biri kimi görən “Nar” inklüzivlik, təhsil və sosial dəstək istiqamətində layihələrə töhfəsini davam etdirir. Nitq və eşitmə məhdudiyyətli şəxslərin cəmiyyətə uyğunlaşmasını asanlaşdıran sosial təşəbbüslər isə “Nar” üçün önəmli istiqamətlərdən biridir.

Kaspi ÜÇ ƏSRİN QƏZETİ

Təsisçi
Global Media Group

Baş redaktor
İlham Quliyev

Redaksiya
Baş redaktorun müavini - Azad Əliyev
Müxbirlər – Təranə Məhərrəmova, Aygün Əziz, Zərif Salmanlı
Müəlliflər – Azər Nuriyev, Rüstəm Qaraxanlı, Xanım Aydın, Aqşin Kərimov, Sevinc Abbasova, Faiq Tahirov
Korrektor – Vüsal Əliyev

Texniki şöbə
Kreativ direktor – Murad Arbay
Dizaynerlər
Laləə Qasımova, İlham İsmayılov, Aydan Məmmədli
Yayım və satış meneceri
Vadim Manafov

Ünvan
Bakı, Səməd Vurğun 34, AF Mall
Telefon: (012) 525 03 31
kaspiqazeti@kaspi.az

Qəzet “Azərbaycan” nəşriyyatında çap olunub.
Sifariş: 811
Tiraj: 2350
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

# LÜKS XİDMƏTİN ARXA FONU

Restoranlarda tez-tez yoxlamalar həyata keçirilir. Ekspertlərin fikrincə, bu yoxlamalar vətəndaşların sağlamlığı üçün olduqca vacibdir. Lakin iş ancaq yoxlamalarla bitməməlidir.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Son vaxtlar Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi (AQTA) müxtəlif restoranlarda yoxlamalar aparır və nöqsanlar aşkarlayır. Onların sırasında insanlar arasında populyar olanlar da var. Bəs bu yoxlamalar restoran-kafelərdə sanitar-gigiyena standartlarının yaxşılaşdırılmasına töhfə verirmi?

### “RESTORAN SAHİBLƏRİ DAHA MƏSULİYYƏTLİ OLMAĞA BAŞLAYIRLAR”

Qida Təhlükəsizliyi Hərəkatının rəhbəri Məhsəti Hüseynova da düşünür ki, restoranlara tələbat artdığı dövrdə nəzarət mütləqdir: “Keyfiyyətsiz məhsullarla qidalanma insanların sağlamlığına ciddi təhlükədir. Günümüzdə insanların restoranlara marağı xeyli artıb. O səbəbdən yoxlamaların aparılması vacibdir. Düşünürəm ki, bu yoxlamalar birmənalı şəkildə sanitar-gigiyena standartlarının yaxşılaşdırılmasına töhfə verir. Nöqsanlar ictimailəşdirildikdə digər restoran sahibləri də daha məsuliyyətli olmağa başlayırlar. Yoxlamalar sahibkarlar üçün xəbərdarlıq rolu daşıyır. Eyni səhvlərin bir daha təkrarlanmamasında da mühüm rol oynayır”.

### “MƏTBƏXLƏRDƏ SİÇANLAR VƏ DİGƏR HƏŞƏRATLAR GƏZİR”

M.Hüseynova son zamanlar restoranlarda daha çox aşkar olunan nöqsanlara da toxundu: “Ən çox nöqsanlar qida məhsullarının düzgün saxlanılmaması, yəni temperatur rejiminə əməl olunmamasıdır. Risk qrupuna aid qidalar soyuducuda saxlanılmalıdır. Yeməklərin hazırlanmasında vaxtı keçmiş qida məhsullarından istifadə olunur. Bəzən çiy və bişmiş məhsullar qarışıq şəkildə olur. Yaxud zərərvericilərə qarşı mübarizə aparılmır, mətbəxlərdə siçanlar və digər həşəratlar gəzir. Onlar qidalara təmas etdikdən sonra qidaların satışı həyata keçirilir. Təmizlik və dezinfeksiya qaydaları da pozula bilir. İşçi heyətin şəxsi gigiyena qaydalarına əməl etməməsi, vaxtı-vaxtında tibbi müayinədən keçməməsi kimi hallar da aşkarlanır”.

Ekspertin fikrincə, maarifləndirmə əsas şərt olsa da, nəzarət də mütləqdir: “Çünki nə qədər maarifləndirmə aparılsa da, nəzarət güclü olmasa, sahibkarlar qazanc əldə etmək üçün yenə də ucuz xammaldan, vaxtı keçmiş məhsullardan istifadə edəcəklər. Yaxşı olar ki, belə yoxlamalar müntəzəm şəkildə həyata keçirilsin. Bir çox müəssisələrdə yoxlamaların xəbərsiz keçirilməsi nöqsanları daha aydın görməyə kömək edər. Müəssisədaxili keyfiyyətə və qida təhlükəsizliyi qaydalarına nəzarət mexanizmlərinin qurulması vacibdir”.



Məhsəti Hüseynova



### “ÖNCƏDƏN XƏBƏRDARLIQ OLUNUR, AMMA YENƏ DƏ NÖQSANLAR AŞKARLANIR”

Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynovun sözlərinə görə, əksər hallarda müəssisələrin yoxlamalardan öncədən xəbəri olur: “Bu yoxlamalar olduqca zəruridir. Təhlükəli qidaların istehlakçılara verilməsinin qarşısının alınması üçün əhəmiyyətlidir. Amma onu da qeyd edək ki, AQTA yoxlama aparmadan dörd gün əvvəl xəbərdarlıq edir, yoxlamaya gələcəklərini bildirirlər. Öncədən xəbərdarlıq olunur, amma yenə də nöqsanlar aşkarlanır”.

Ekspert bir çox restoranların real vəziyyətindən də danışdı: “Bakıda elə restoranlar var ki, olduqca bahalı və lüksdür, lakin mətbəxləri bərbad vəziyyətdədir. Mətbəxə kameralar qoyulmalıdır ki, gələn qonaqlar sifariş verdikləri yeməklərin hazırlanması şəraitini görə bilsinlər. Elə restoranlar var ki, yemək başqa yerdə bişirilir, yalnız qızdırılıb müştərilərə təqdim edilir. Yaxud qida xarab olur, vaxtı keçir, o şəkildə qonaqlara verilir”.

E.Hüseynovun sözlərinə görə, regionlarda vəziyyət daha acınacaqlıdır: “Yay aylarında regionlarımızda restoranlar anti-sanitar vəziyyətdə fəaliyyət göstərir. Tələb təklifi üstələdiyi üçün insanlar buna fikir vermirlər”.

### “O HƏDDƏ ÇATDIRMAQ OLMAZ Kİ, MÜƏSSİSƏ BAĞLANSIN”

Azərbaycan Hotellər və Restoranlar Assosiasiyasının İdarə Heyətinin sədri Samir Dübəndi deyir ki, burada hər iki tərəfin üzərinə müəyyən iş düşür: “Nəzarət-yoxlama üsullarından, təbii ki, istifadə edilməlidir. Yalnız o həddə çatdırmaq olmaz ki, müəssisə bağlansın, biznes və həmin müəssisədə çalışanlar işsiz qalsınlar. Zənnimcə, hər iki tərəf bu həddə çatdırmamalıdır”.



S.Dübəndinin sözlərinə görə, müəssisələrin bəziləri məlumatlı deyil, o səbəbdən də maarifləndirmə lazımdır: “İctimai iaşə sektorunda sanitar-gigiyena standartlarına birmənalı və ciddi riayət edilməlidir. Bu qayda və standartların tələblərinə riayət etmək təkcə yoxlamalarla baş tuta bilməz. Ən vacib məqam biznesin bu qayda və standartları öncədən bilməsi və bu sahədə hər bir müəssisədə müvafiq biliklərin yaradılmasıdır. Yoxlamalarla yanaşı, geniş miqyaslı maarifləndirmə işləri də aparılmalı, təlimlər keçirilməli, sertifikatlaşma işləri daha ciddi aparılmalıdır. Biz AQTA-ya dəfələrlə ictimai iaşə sahəsi üçün təlimlərin keçirilməsini təklif etmişik, yalnız bunlara müsbət cavab almamışıq. İctimai iaşə sahəsi üçün kadr hazırlayan peşə təhsil sahəsində də əsaslı islahatlar aparılmalıdır”.

## “QANUNVERİCİLİKDƏ BOŞLUQ VAR”

Sədr restoran sahəsində digər diqqət olunmalı məqamlardan da bəhs etdi: “İctimai iaşə biznesinin uğuru təkcə sanitar-gigiyena, qida təhlükəsizliyi qaydaları ilə müəyyənləşmir. Burada xidmət keyfiyyətini təmin edən digər amillərə də diqqət yetirilməlidir. Əfsuslar olsun ki, gündən-günə genişlənən, dövriyyəsi artan ictimai iaşə sektorunda vahid tənzimləyici rolunu təmin edən dövlət qurumu mövcud deyil. Xidmət keyfiyyətini təmin edən servis qaydaları, ümumilikdə isə restoran, kafe, bar və sair kimi müəssisələrin təşkili və açılması qaydalarında böyük bir boşluq var. Bu sahədə hüquqi-normativ bazamızın təkmilləşdirilməsinə böyük ehtiyac duyulur”.



Eyyub Hüseynov
Samir Dübəndi

ƏHALİNİN DƏRMAN ALMAĞA XƏRCLƏDİYİ PULUN HƏCMİ NİYƏ ARTIR?

# AMBULATOR MÜALİCƏ ALAN XƏSTƏLƏRƏ ŞAD XƏBƏR

**Dərmana xərclənən vəsaitin artması narahatlıq yaradır. Ekspertlər bunu həm xaricdə dərman preparatlarının bahalaşması, həm də mövsümi xəstəliklərlə əlaqələndirirlər. Qısa müddətdə bu sahədə köklü dəyişikliklər gözlənilir.**

SEVİNC ABBASOVA

Əhalinin dərmana xərclədiyi vəsaitlərin həcmi ilbəil artır. Təkcə bu ilin üç ayında ölkə vətəndaşları əczaçılıq məhsulları və tibbi ləvazimatlara 342,5 milyon manat pul xərcləyib. Dövlət Statistika Komitəsinin məlumatına görə, bu göstərici ötən ilin eyni dövrü ilə müqayisədə 9,1 faiz çoxdur. Ötən üç ay ərzində alıcıların son istehlak məqsədilə aldıqları mallara xərclədiyi vəsaitin 2,3 faizi əczaçılıq məhsulları və tibbi ləvazimatların alınmasına sərf olunub. Əslində 10 faizə yaxın artım heç də kiçik rəqəm deyil. Dava-dərmana xərclənən vəsaitlərin artması birbaşa ailə büdcəsinə təsir edir.

**"QİYMƏT ARTIMI XƏRCLƏRİ ARTIRIR"**

Sosial məsələlər üzrə ekspert İlqar Hüseynli dərman vasitələrinə çəkilən xərclərin artmasını bahalaşma ilə əlaqələndirir: "Burada daha iki məqama diqqət etmək lazımdır. Birincisi, bioloji aktiv maddələr həkimlər tərəfindən geniş şəkildə reseptlərə yazılır. Bioloji aktiv maddələr də dərman preparatları ilə müqayisədə kifayət qədər bahadır. Bu da dövriyyədə öz fərqini göstərmiş olur".

Ekspert vurğulayıb ki, əhalinin yükünün azaldılması üçün dərman vasitələrinin icbari tibbi sığorta hesabına qarşılanması vacibdir: "Bu təcrübədən bir çox ölkələrdə istifadə olunur. Məsələn, Türkiyə təcrübəsində icbari tibbi sığortanın tətbiqi diaqnostikadan başlayaraq apteklərdən dərmanların buraxılmasına qədər davam edir. Azərbaycanda isə həmin zəncir qırılır. Bu zənciri bərpa etmək üçün özəl sektorla müəyyən razılaşmalar həyata keçirilməlidir".



İlqar Hüseynli

**"MÖVSÜMİ XƏSTƏLİKLƏR ÇOXALIB"**

Milli Məclisin Səhiyyə komitəsinin üzvü Müşfiq Məmmədli isə hesab edir ki, xərclərin artması bir neçə səbəblə bağlıdır: "Birincisi, dünyada bəzi preparatların qiymətində artım var. İkinci əsas məsələ mövsümi amillərdir. Adətən, qış aylarından başlayaraq yaz aylarının bitməsinə qədər olan dövr ən çox dərman preparatlarının istifadə olunduğu dövr hesab olunur. Üçüncüsü, icbari tibbi sığortanın tətbiqindən sonra daha çox insan tibbi xidmətlərdən istifadə edir. Bu da dərman tələbatının və nəticədə ona ayrılan vəsaitin artmasına səbəb olur".

Dərmanların icbari tibbi sığorta paketinə daxil edilməsi prosesinin ləngiməsi səbəblərinə gəlincə, millət vəkili hesab edir ki, bu məsələ tezliklə reallaşacaq: "Hər hansı ləngimə yoxdur. Qanunvericiliyə dəyişiklik zamanı müzakirələrdə bildirildi ki, proses mərhələli şəkildə həyata keçiriləcək. İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin vəsaitləri artdıqca ürək-damar, yuxarı tənəffüs yolları, həzm sistemi xəstəliklərinin müalicəsi üçün nəzərdə tutulan preparatlar və digər xəstəliklər üzrə dərman vasitələri icbari tibbi sığorta hesabına qarşılanacaq".

**2025-ci il yanvar-fevral**

Xərclənən vəsait

**342,5 mln manat**

**Ötən illə müqayisədə**

**9,1% çox**




**"BAZARDA RƏQABƏTLİLİYİN AZLIĞI QİYMƏT ARTIMINI ŞƏRTLƏNDİRİR"**

İqtisadçı-ekspert Eyyub Kərimli deyib ki, Azərbaycanın dərman preparatlarında idxaldan asılılığı yerli bazara təsirsiz ötüşmür: "Əhalinin dərmana çəkdiyi xərcin artmasının kökündə duran əsas məsələ qiymət artımıdır. Dərman vasitələri ilə bağlı idxaldan asılıyıq. Dünya bazarında bahalaşma yerli bazara birbaşa təsir göstərir. Ona görə ölkəmizdə dərman istehsalı ilə bağlı müvafiq addımların atılması vacibdir. Bəzi hallarda qiymət artımına inhisarçılıq meylləri də təsir göstərir. Çünki dərman vasitələri bazarda əsas paya malik bir neçə şirkət tərəfindən idxal olunur. Bazarda rəqabətliliyin azlığı qiymət artımını şərtləndirir".

**PULSUZ DƏRMAN TƏMİNATINA NƏ VAXT BAŞLANACAQ?**

İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyindən bildirilib ki, ambulator şəraitdə resept əsasında istifadə olunan dərman vasitələrinin mərhələli qaydada icbari tibbi sığorta ilə qarşılanması nəzərdə tutulub: "Bununla bağlı "Tibbi sığorta haqqında" qanuna dəyişiklik ölkə Prezidentinin müvafiq Fərmanı ilə ötən ilin sonu təsdiq olunub. Qanunun tələbindən irəli gələn tapşırıqların icra edilməsinə, mexanizmlərin yaradılmasına yarım ilə yaxın vaxt tələb olunduğundan dərman təminatına bu ilin ikinci yarısında başlanılması nəzərdə tutulub.

2025-ci ilin ikinci yarısından ürək-damar sistemi xəstəlikləri, növbəti illərdə isə həzm və tənəffüs sistemi xəstəlikləri üçün dərman vasitələrinin sığortaya daxil edilməsi planlaşdırılır".



Eyyub Kərimli

## APTEKLƏR XÜSUSİ LOQOLARLA İŞARƏLƏNƏCƏK

Agentlikdən vurğulanıb ki, yenilənən Xidmətlər Zərfində təminata alınan dərmanların əsas təsiredici maddəsi və dozası qeyd olunacaq: "Buna əsasən icbari tibbi sığorta hesabına qarşılanan dərmanlarla bağlı pozitiv siyahı hazırlanacaq. Pozitiv siyahıda dərmanların brend adları və qiymətləri olacaq. Dərmanların qiyməti iki hissədən ibarət olacaq: şərti kompensasiya məbləği - Sığorta tərəfindən ödəniləcək məbləğ və müştərək maliyyələşmə məbləği (MMM) - vətəndaş tərəfindən ödəniləcək məbləğ. Pərakəndə satış qiyməti Tarif Şurası tərəfindən müəyyən edilir. Eyni təsiredici maddənin olduğu dərmanların qiymətləri istehsalçıdan və ölkələrdən asılı olaraq fərqli ola bilər. Sığorta tərəfindən eyni tərkibli dərman istehsalçılarının hər birinə eyni məbləğ ödəniləcək. Vətəndaş tərəfindən seçilən dərmanın qiymətindən asılı olaraq, onun ödədiyi məbləğ isə fərqli ola bilər". Qurumdan o da qeyd edilib ki, icbari tibbi sığorta hesabına dərman təminatı yalnız elektron reseptlər əsasında həyata keçiriləcək: "Vətəndaş elektron reseptlə Agentlik ilə müqaviləsi olan aptekə yaxınlaşaraq reseptdəki dərmanların təsiredici maddəsi və dozalarına uyğun pozitiv siyahıdakı dərmanlardan birini seçə biləcək. Agentliklə müqaviləsi olan apteklər xüsusi loqolarla işarələnəcək".

YÜKSƏK MAAŞLI SAHƏLƏRDƏ ƏSASƏN XARİCİ UNİVERSİTETLƏRİ BİTİRƏNLƏR ÇALIŞIRLAR

# KİMLƏR DAHA ÇOX MAAŞ ALIR?

Ölkədə sahələr üzrə əməkhaqları arasında ciddi fərq var. Ekspertlər bunu həm peşəkarlıq, həm də iqtisadi dəyərlə əsaslandırırlar.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az



İnsanların əməkhaqları sektorlar üzrə dəyişir. Belə ki, bu il üçün orta aylıq əməkhaqqı neft-qaz sektorunda 3 830,2 manat, qeyri neft-qaz sektorunda 1 010,8 manat təşkil edib. Dövlət müəssisələrində çalışan işçilərin orta aylıq əməkhaqları 1 017,2 manat, özəl müəssisələrdə isə 1 110,0 manat olub. Əməkhaqqının ən yüksək olduğu sahələr mədənçıxarma sənayesi (3 596 manat), maliyyə və sığorta fəaliyyəti (2 768 manat), informasiya və rabitə fəaliyyəti (1 854 manat), nəqliyyat və anbar təsərrüfatı (1 645 manat) olub. Ən aşağı olduğu sahələr kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq (644 manat), inzibati və yardımçı xidmətlərin göstərilməsi (669 manat) hesab edilir. Bəs maaş nəyə əsasən formalaşır? Bu sahələri hansı məqamlar fərqləndirir?

Qeyd edək ki, mədənçıxarma sənayesi üzrə yüksək əməkhaqqı alanlar mühəndislər, geoloqlar və layihə menecerləridir. İnformasiya və rabitə sahəsində isə proqramçılar, sistem administratorları, şəbəkə mütəxəssisləri və kibertəhlükəsizlik üzrə mütəxəssisləri göstərə bilərik. Maliyyə və sığorta üzrə isə bank menecerləri, maliyyə analitikləri və auditorları qeyd etmək mümkündür.

### "MÜTƏXƏSSİSLƏR AQRAR SAHƏDƏ ÇALIŞMAQ İSTƏMİRLƏR"

Əmək qanunvericiliyi üzrə ekspert Nüsrət Xəlilovun sözlərinə görə, maaşların yüksək olması həmin sahələrə olan tələb və oradakı inkişafdan qaynaqlanır: "Məsələn, neft-qaz sənayesinə xarici investorlar yatırım edirlər. Mədənçıxarma sənayesi bizdə daha prioritet sahə hesab edilir. Bu səbəbdən orada əməkhaqqı digər sahələrə nisbətən daha yuxarıdır". N.Xəlilovun fikrincə, aqrar sahəyə ehtiyacımız olsa da, mütəxəssislər bu sahədə çalışmaq istəmirlər: "Savadlı aqronomlara ehtiyacımız var. Bu sahədə maaş çox azdır - cəmi 497 manat. Müəssisəyə vəsait daxil olmalıdır ki, yüksək ixtisaslı şəxsləri dəvət edə bilsinlər. Onlar inkişaf etdikcə, kadrlar da öz üzərilərində işləməyə başlayacaqlar. Beləliklə, orta əməkhaqqı göstəricisi də artacaq".

Ekspert qeyd edir ki, yüksək maaşlı sahələrdə işəgötürənlərin əksəriyyəti xaricdə təhsil almış şəxsləri seçirlər: "Amma sırf yüksək əməkhaqqı alan sadəcə onlar deyil. Kifayət qədər yerli universitetləri bitirmiş və yüksək maaş alan işçilər də mövcuddur".

## "Əməkhaqqı individual təyin olunur"

İşədüzəltmə üzrə menecer Afa Həsənova isə düşünür ki, əməkhaqqı sahələrə görə yox, insanlara görə dəyişir: "Bu peşələrdə əməkhaqqının daha yüksək olmasının səbəbi mütəxəssisin peşəkar sertifikatları, təhsili, təcrübəsidir. Əməkdaşın haralarda çalışması, təcrübə toplaması, pillə-pillə yüksəlməsi kimi faktorlar da burada rol oynayır. Heç bir sahəni konkretləşdirə bilmərik ki, filan sahədə maaşlar yüksəkdir. Çünki çox zaman əməkhaqqı individual təyin olunur. Bu səbəbdən də konkret olaraq deyə bilmərik ki, kənd təsərrüfatı sahəsində maaş aşağıdır. Hazırda aqrar peşələrə tələbat olduqca böyükdür. Amma həmin sahədə peşəkarlar çox azdır. Bu səbəbdən sözügedən sahələr də inkişaf etdirilməli və mütəxəssislər yetişdirilməlidir".

### "DÖVLƏT SEKTORUNA MARAQ ARTIB"

A.Həsənova bildirir ki, işəgötürənlər üçün xaricdə təhsil alıb gəlmiş şəxslər daha cəlbedicidir. Əgər tələbəlik dövründə hansısa təcrübə toplayıbsa, bu zaman işçinin dəyəri daha da artır. Xarici sertifikatlar əldə etməsi onu rəqiblərindən fərqləndirir. Bir neçə xarici dil bilmək də xüsusi rol oynayır: "Bu cür işçilər sadəcə ölkəmizdə deyil, həmçinin beynəlxalq bazarda da axtarılır".

Menecer deyir ki, hazırda dövlət və özəl sektor arasında rəqabət müşahidə olunur: "Əvvəl özəl sektorda maaşlar daha yüksək, dövlət sektorunda isə aşağı idi. Amma hazırda dövlət sektorunda da maaşlar artırılıb, həmçinin işçiləri keyfiyyətli kurslara göndərirlər ki, bilik və bacarıqları artırılsın. Hazırda özəl və dövlət sektoru rəqabət aparır. Bir zamanlar insanlar dövlət sektorunda çalışmaq istəməsə də, artıq oraya maraq xeyli çoxalıb".

## "Sahənin dəyəri də mühüm rol oynayır"



Nüsrət Xəlilov



Rəşad Həsənov

İqtisadçı Rəşad Həsənovun fikrincə, əmək bazarında maaş bir neçə faktor əsasında formalaşır: "Bunun birincisi tələb və təklifdir. Hansı peşələr üzrə təklif çox olursa, həmin işlərdə əməkhaqqı daha aşağı olur. İkinci mühüm faktor tələb olunan əməyin spesifikliyidir. Bilik əsaslı əmək uzunmüddətli dövrdə, həmçinin böyük sərmayələr qoyularaq əldə edilir. O səbəbdən şəxs əməyini ucuz qiymətə satmayacaq. Həmçinin nəzərə alaq ki, bu əmək növündə təklif də o qədər çox olmur. Bilik əsaslı əmək fizikidən daha bahalıdır. Burada biliyin keyfiyyəti də önəmlidir. İnsanlar işə qəbul edilərkən əməkhaqqı danışılsa da, əsas maaş iş zamanı formalaşır. İşçi həqiqətən də tələblərə cavab verdikdə, əvəzolunmaz olduqda, müəssisə üçün xüsusi bir dəyər yaratdıqda şəxsin əməkhaqqına davamlı artımlar edilir".

R.Həsənovun sözlərinə görə, aqrar sektorda tələb daha çox fiziki əməyədir. Onun yaratdığı dəyər də azdır. Bu səbəbdən sahibkar daha yuxarı əməkhaqqı təklif edə bilmir: "Amma müəyyən sahələr var ki, həm elmə əsaslanır, həm də yüksək əlavə dəyər yaradır. Buna nümunə olaraq neft sektorunu göstərə bilərik. Azərbaycanda 1 milyon 800 minə yaxın muzdla çalışan işçi mövcuddur. Təxminən 30 mini neft sektorunda çalışanlardır. Amma onların yaratdığı əlavə dəyər ölkə iqtisadiyyatının 35 faizindən daha çoxdur. Hətta bəzi illərdə bu göstərici 50 faizə qədər olub. Belə bir sahədə yüksək əməkhaqqının təklif edilməsi imkanı genişdir".

İqtisadçı bildirir ki, fiziki əməklə olan işlərə tələb azalır. Buna səbəb texnologiyanın, süni intellektin tətbiqidir.

QANUNA ƏSASƏN, DAŞINMAZ ƏMLAKIN İCBARİ SIĞORTASI İCBARİ QAYDADA EDİLMƏLİDİR

# MƏNZİLİMİZİ NİYƏ SIĞORTA ETDİRMƏK İSTƏMİRİK?

**Ölkədə 11 minə yaxın istismar müddəti bitmiş çoxmənzilli köhnə bina var. Ekspertlər bildirirlər ki, bu binaların sığortaya cəlb olunması sığorta sektoru üçün risklidir. Sığorta şirkətləri qəzalı və yarımqəzalı binalardakı mənzilləri sığorta etməkdən boyun qaçırırlar.**



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az



"Azərbaycanda daşınmaz əmlakın katastrofik risklərdən icbari sığortası nəzərdə tutulur". Bunu mətbuata açıqlamasında Mərkəzi Bankın Sığorta fəaliyyətinə nəzarət departamentinin direktoru Vüsal Qurbanov deyib. O bildirib ki, beynəlxalq təcrübədə olduğu kimi, ölkəmizdə də katastrofik risklərin təsirinin azaldılması üçün sığorta effektiv müdafiə mexanizmi sayılır. Bununla əlaqədar olaraq daşınmaz əmlakın icbari sığortasının katastrofik risklər üzrə daha geniş kütləyə təsir edə biləcək əhəmiyyətli zərərlərin aradan qaldırılması istiqamətində sığortanın təsiredici imkanlarının artırılması nəzərdə tutulur. Bu sığorta növü üzrə beynəlxalq təcrübəyə əsaslanmaqla yeni konsepsiya hazırlanıb və aidiyyəti hüquqi aktların tərtib olunması üzrə işlər davam etdirilir.

Son dövrlər daşqın, sel, meşə yanğınları, zəlzələlər, həmçinin bir sıra kütləvi tələfatlara və maddi ziyana səbəb olan təbii fəlakətlərin sayının artması ilə Mərkəzi Bank daşınmaz əmlakın icbari sığortasını yenidən gündəmə gətirib. Məlumdur ki, əslində bu, "İcbari sığorta haqqında" qanunda yer alır, amma tətbiq olunmur. Hətta bir neçə il öncə qanunun tətbiq ediləcəyi, sığorta olunmayanaların cərimlənəcəyi barədə xəbərlər yayılsa da, tətbiq edilmədi.

Maraqlıdır, nə üçün yaşadığımız mənzilləri sığorta etməkdə çətinlik çəkirik? Ümumiyyətlə, bu sahədə problemlər nədir? Yeni konsepsiya bu istiqamətdə nələri dəyişə bilər?

### QANUN VAR, AMMA...

Sığorta eksperti İlkin Nəcəfov "Kaspi" qəzetinə açıqlamasında bildirdi ki, daşınmaz əmlakın icbari sığortası da qanuna əsasən, icbari qaydada edilməlidir: "Katastrofik risklər dedikdə təbii fəlakətlər, yanğınlar, partlayışlar, ildırım vurması, zəlzələ kimi hadisələr nəzərdə tutulur. Hər bir əmlak - yaşayış, qeyri-yaşayış sahəsi icbari qaydada sığortalanmalıdır. Hazırda sakinlər bunu etməkdə maraqlı deyillər. Çünki cərimə mexanizminin işlək protokolu yoxdur. Bu cərimə mexanizmini həyata keçirəcək müvafiq icra hakimiyyəti orqanı təyin edilməyib. Qanun var, amma qanunun icrası ilə bağlı cərimə mexanizmi olmadığı üçün əhali də əmlakını sığortalamır".

## QEYRİ-YAŞAYIŞ SAHƏLƏRİ ÜZRƏ ƏHATƏ DAİRƏSİ 100 FAİZƏ YAXINDIR



Mütəxəssis deyir ki, hazırda əmlaklarını sığortalayanlar daşınmaz əmlakla bağlı notariusda, dövlət orqanlarında əqdlər həyata keçirənlərdir: "Qeyri-yaşayış sahələrində icbari sığorta üzrə bazarın əhatə göstəricisi demək olar ki, 100 faizə yaxındır. Çünki icbari sığortası olmayan qeyri-yaşayış sahələri Fövqəladə Hallar Nazirliyinin nümayəndələri tərəfindən cərimələnir. Amma yaşayış sahələrində bu mexanizm yoxdur. Mərkəzi Bank bununla bağlı iş aparır, müvafiq icra hakimiyyəti orqanının cərimə protokolu hazır olandan sonra bu sığortanın tətbiqi həyata keçiriləcək".



İlkin Nəcəfov

## ƏVVƏLKİ İLLƏRLƏ MÜQAYİSƏDƏ 2-3 DƏFƏ AZALIB

Əmlak eksperti Elnur Azadov isə deyir ki, iki il öncə bu sahədə maaifləndirmə aparılır, cəmiyyətdə maraq oyanırdı. İndi isə vəziyyət dəyişib: "Ölkədə artıq bir neçə ildir ki, daşınmaz əmlakın icbari sığortası həyata keçirilir, bununla bağlı müvafiq qanunvericilik var. İlk illər bu barədə geniş müzakirələr aparıldı. Hətta sığorta olmadığı halda inzibati məsuliyyətə, cərimələrə cəlb olunma məsələsi də gündəmdə var idi. Bu səbəbdən 2022-2023-cü ildə daşınmaz əmlakın icbari sığortası ilə bağlı xeyli sığorta müqavilələri bağlanıldı və bu sahədə inkişaf var idi. Lakin 2024-cü ildə proses yenidən səngidi. Vətəndaşlar sanki bunu unutdular. Ona görə də daşınmaz əmlakın icbari sığortası əvvəlki illərlə müqayisədə 2-3 dəfə azaldı".

### SIĞORTA HADİSƏLƏRİ AZ, RİSKLƏR ÇOX DEYİL

Əmlak eksperti deyir ki, daşınmaz əmlakda sığorta hadisələrinin sayı az olduğundan, risklər də çox deyil. Buna görə də vətəndaşlar əmlakını sığorta etməyə meyilli deyillər: "Bu sahənin inkişafı üçün ölkədə çox işlər görülməlidir. Məsələn, qeyri-rəsmi məlumata görə, 500 mindən çox müxtəlif daşınmaz əmlakın mülkiyyətləri tanınmır, yəni, qanunsuz tikililərdir. Hətta mənə görə bu rəqəm 700-800 mindir. Çünki 500 min yalnız Bakı ərazisindədir. Belə böyük həcmdə daşınmaz əmlakın amnistiyası olmalıdır. Bu istiqamətdə illərdir işlər aparılır, lakin hələ də nəticə yoxdur. Nə vaxt ki, ölkədə olan bütün daşınmaz əmlakların mülkiyyəti tanınacaq, bu sektorun inkişafı üçün daha çox iştirakçı cəlb olunacaq".

Mütəxəssisin sözlərinə görə, növbəti problem odur ki, ölkədə 11 minə yaxın istismar müddəti bitmiş çoxmənzilli köhnə bina var: "Onların da sığortaya cəlb olunması sığorta sektoru üçün risklidir. Onların içində xeyli sayda qəzalı və yarımqəzalı bina var. Bu, ciddi səbəbdir. Çünki sığorta şirkətləri qəzalı və yarımqəzalı binalardakı mənzilləri sığorta etməkdən boyun qaçırırlar. Hər hansı bədbəxt hadisə olarsa, təbii ki, bunun da nəticəsi yaxşı olmayacaq".

Məlumat üçün bildirək ki, daşınmaz əmlakın icbari sığortası illik Bakı ərazisində 50 manat, Gəncə, Sumqayıt və Naxçıvanda 40 manat, digər rayonlarda isə 30 manatdır. Hər hansı bədbəxt hadisə zamanı vətəndaşa ödəniləcək sığorta məbləği Gəncə, Sumqayıt və Naxçıvanda 20 min manata qədər, Bakıda 25 min manatdır. Digər yaşayış məntəqələrində bu məbləğ 15 min manat müəyyən olunub.



Elnur Azadov

# KƏND TOYUĞU ADI İLƏ ALDATMA CƏHDLƏRİ

**İnsanlar kənd və broyler toyuğunu rənginə görə ayırırlar. Çünki broyler toyuqları təbii yemlə qidalanmır. Kənd toyuqları 3-4 aya yetişir. Bu müddət ərzində maksimum 1.5 kiloqram çəki yığırlar. Broyler toyuqları isə bundan da qısa müddətdə daha çox çəkidə olur.**



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az




**"BROYLER TOYUQLARINA ANTİBİOTİKLƏR, HORMONAL DƏRMANLAR VERİLİR"**

Bazarlarda, metro çıxışlarında kənd toyuğu adı altında satılan məhsulların sayı artıb. İnsanların əksəriyyəti daha baha olsa da, bu məhsulu almağa üstünlük verir. Lakin son dövrlərdə işbazlar bu sahədə də alıcıları aldadırlar. Belə ki, bəzi satıcılar kənd toyuğu adı ilə insanlara broyler toyuqları satırlar. Bəs vətəndaşlar aldanmamaq üçün nələrə diqqət etməlidirlər?

**BROYLERİ KƏND TOYUĞU QƏDƏR SAXLAMAQ SƏRF ETMİR**

Qida təhlükəsizliyi eksperti İlkin Şirinov broyler və kənd toyuqlarının tamamilə fərqli şərtlər altında yetişdirildiyini vurğuladı: "İnsanlar kənd və broyler toyuğunu rənginə görə ayırırlar. Çünki broyler toyuqları təbii yemlə qidalanmır. Kənd toyuqları 3-4 aya yetişir. Bu müddət ərzində 1.5 kiloqrama qədər inkişaf edə bilir. Broyleri kənd toyuğu qədər saxlamaq fermerlərə sərf etmir. Artıq saxladıqda artıq yem verməlidirlər. Bu isə büdcələrinə ziyandır". Ekspert bildirir ki, broyler toyuqlarının qidalanmasında kimyəvi qatqılı xüsusi kökəldici yemlərdən istifadə olunur. Həmin qidalarla yemlənən toyuqlar qısa müddətdə, maksimum bir aya süni şəkildə şişirdilir: "Kəsildikdən sonra xüsusi soyutma sistemlərində az buzlu halda etiketlənir və satış obyektlərinə çatdırılır. Kənd toyuğu isə daha uzun müddət saxlanılır. Günəş və torpaqla əlaqədə olurlar. Bu səbəbdən də broyler toyuqlarının bədənlərində olan su qalıqları kənd toyuqlarında müşahidə edilmir".



İlkin Şirinov

## Dərisi sarı və qabarıq olur

İ.Şirinovun sözlərinə görə, diqqətlə baxdıqda broyler və kənd toyuqlarını asanlıqla ayırd etmək mümkündür: "Broyler toyuqlarının ayaqlarını xüsusi sarıköklü və ya sarı kimyəvi maddəli suda bir müddət saxladıqdan sonra kənd toyuğu adı ilə insanlara satırlar. Lakin kənd toyuğunun təbii sarılığı ilə sonradan rəngi dəyişdirilən toyuq arasında fərqi gözlə görmək mümkündür. Kənd toyuğunu bişirdikdə dadı və ətinin yapışqanlığı onu müəyyən etməkdə kömək olur".

Ekspertin sözlərinə görə, kənd toyuğunun dərisi günəş işığından gələn D vitamini ilə zəngin olduğundan broyler toyuğuna nisbətən daha qabarıq və qalın olur. Amma broyler toyuğunda dəri salfet kimi nazikdir: "Kənd toyuğunun özünəməxsus qoxusu var. Bu qoxu broyler toyuqlarında olmur. İnsanlar sağlamlıqlarının qeydinə qalmaq istəyirlərsə, toyuğu diri formada almaları daha məqsədəuyğundur. Bu zaman heç bir şübhə, risk də olmayacaq".

Ekspertin fikrincə, belə halların qarşısının alınması üçün xüsusi mexanizm olmalıdır. İşçi qrup yaradılmalı və məhsulun həqiqiliyi ayırd edilməlidir ki, insanlar işbazların qurbanına çevrilməsinlər: "Bazarlarda və digər iaşə müəssisələrində tək toyuqlarda deyil, digər ət məhsullarında da belə fırıldaqlar mövcuddur. Bununla bağlı reydlər keçirilməlidir. Çünki işbazlar üçün insan sağlamlığı ikinci plandadır. Broyler toyuqlarına vurulan maddələr ürək-damar xəstəliklərinə, hətta xərçəng riskinə səbəb ola bilər".

İ.Şirinov insanlara tövsiyə etdi ki, bilmədikləri yerlərdən belə məhsulları əldə etməsinlər: "Bu məhsulların açıq şəkildə insanların sıx yerləşdiyi yerlərdə satılması heç də düzgün deyil. Üzərindən heç bir markalanma olmayan məhsulu almaq göz görə-görə sağlamlığımızı riskə atmaq deməkdir. Çünki bu məhsulların açıq havada, qadağan edilən temperaturda satışı yolverilməzdir".

Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov isə bildirdi ki, toyuqlar əsasən üç cür şəraitdə yetişdirilir: "Birincisi tam azaddır. Səhər hindən buraxılır, bir də axşam hinə doldurulur. Üstəlik, onlar buğda və arpa ilə də qidalanırlar. İkincisi yarı azad toyuqlardır. Hansı ki, hasar daxilində olsalar da, açıq havada olurlar. Onlara həm broylerlərin, həm də azad toyuqların yediyi yemlər verilir. Üçüncü isə tam qapalı şəraitdə saxlanılan broyler toyuqlarıdır. Onları tez yetişdirmək üçün müxtəlif vasitələrdən istifadə edilir. Broyler toyuqlarına antibiotiklər, hormonal dərmanlar verilir. Onlar da insan orqanizmi üçün zərərlidir".

**YAŞLI TOYUQLAR DA KƏND TOYUĞU ADI ALTINDA SATILIR**

E.Hüseynovun sözlərinə görə, bəzən şəhərdə biri üç manata toyuqlar satılır. Həmin toyuqlar yumurtadan kəsilən toyuqlardır, əti çox bərk olur: "İşbazlar da bundan istifadə edərək, onu kənd toyuğu adı ilə insanlara satırlar. Bişirəndə kənd toyuğuna bənzəyir. Amma əslində satışa verilməməlidir. Kənd toyuqlarının əti və sümüyü daha möhkəm olur. Broyler toyuğu şişmiş və ətli olduğu üçün sümükləri daha yumşaqdır".

Sədrin fikrincə, insanlar bu kimi hallarla qarşılaşdıqda müvafiq orqanlara məlumat verməlidir: "Nazirlər Kabinetinin 94 saylı qərarına görə, Azərbaycan əmtəə bazarında satılan bütün qida məhsulları paketlənməli, üzərində etiketi, buraxılma tarixi və sair bu kimi məlumatlar olmalıdır. İnsanlara tövsiyə edirəm ki, kənd toyuqları adı ilə satılan broyler toyuqları gördükdə bu barədə Qida Təhlükəsizliyi Agentliyinin "Qaynar xətt"inə məlumat versinlər".

Kaspi İDMAN
ÜÇ ƏSRİN QƏZETİ
19 APREL ŞƏNBƏ 2025



# FUTBOLÇULARIMIZ NİYƏ QOL VURA BİLMİRLƏR?

**Premyer Liqa klublarının irəli xətt oyunçularına baxdıqda, bir qayda olaraq legioner futbolçuları görürük. Hücumçuların az qala hamısı əcnəbilərdir.**




Futbolun bəzəyi qoldur. Azarkeşləri oyuna bağlayan da məhz budur. Gözəl bir ötürmə və ya taktiki quruluş nə qədər vacib olsa da, onları dəyərli edən nəticə qoldur. Bu səbəbdən hücumçular, qol vuran oyunçular daha çox ön plana çıxır. "Qızıl top" kimi nüfuzlu fərdi mükafatların əksəriyyəti məhz hücum xəttində çıxış edən, məhsuldar futbolçulara verilir. Bir qədər klassik olan bu girişdən aydın olduğu kimi bu dəfə qoleadorlardan bəhs edəcəyik. Daha doğrusu, azərbaycanlı futbolçuların qol vura bilməmə problemindən.

### PREMYER LİQADA ACINACAQLI MƏNZƏRƏ

Azərbaycan çempionatının oyunları, adətən, bir o qədər də məhsuldar keçmir. Bu səbəbdən yekun bombardirlik sıralamasında da gözqamaşdıran rəqəmlər olmur. 30 turdan sonra Premyer Liqamızda ən məhsuldar futbolçu Leandro Andradedir. "Qarabağ"ın kabo-verdeli yarımmüdafiəçisi 14 dəfə topu tora qovuşdurmağı bacarıb. Onu "Sabah"dan Jesse Sekidika və "Zirə"dən Davit Volkov izləyir - hərəyə 10 qol. Peşəkar Futbol Liqasının rəsmi saytında yer alan bombardirlik sıralamasında ilk 14 futbolçu arasında cəmi bir yerli var. "Qarabağ"ın futbolçusu Nəriman Axundzadə səkkiz qolla 8-ci yerdədir. İlk 25 futbolçu arasına isə hərəyə beş qolla Toral Bayramovla Rüfət Abdullazadə də daxil olmağı bacarıblar.

Keçən mövsümün yekun sıralamasında da oxşar durum olub. O zaman da Nəriman Axundzadə əcnəbilərin bombardirlik mübarizəsində varlıq göstərməyə çalışıb. Cəmi iki mövsüm əvvəl isə tam fərqli mənzərə olub. Ramil Şeydayev 22 qolla bombardir adını qazanıb. Ən yaxın izləyicisi Musa Qurbanlı 21 dəfə fərqlənib. Sıralamada Emin Mahmudov üst pillələrdə olub. İndi isə vəziyyət 180 dərəcə dəyişib.

### HÜCUMÇU TAPILMIR

Premyer Liqa klublarının irəli xətt oyunçularına baxdıqda, bir qayda olaraq legioner futbolçuları görürük. Hücumçuların az qala hamısı əcnəbilərdir. Burada yalnız Nəriman Axundzadəni istisna edə bilərik. O da Juninyonun "Qarabağ"ı tərk etməsindən sonra hücumun sivri ucunda yer almağa başlayıb. "Neftçi"də Ağadadaş Salyanski ara-sıra şans qazanır, "Qarabağ"ın iki il öncə bombardirlər siyahısında olan hücumçusu Musa Qurbanlı isə formasından çox uzaqdır.

Təkcə hücumun mərkəzi deyil, vinger, oyunqurucu kimi mövqelərdə də klublar bir qayda olaraq əcnəbilərdən yararlanırlar. Burada Rüfət Abdullazadə, gənc oyunçulardan Xəyal Əliyev, Murad Musayevi istisna edə bilərik.

### YAŞ LİMİTİNİN FƏSADI

Uzun illər çempionatımızda klubların start heyətdə yaşı 21-dən az olan azı bir yerli futbolçunu meydana buraxması qaydası tətbiq olunub. Bəzi futbolçular məhz limitin sayəsində üzə çıxdılar. Limitin fəsadı isə daha böyükdür. Klubların baş məşqçiləri gənc futbolçuları əsasən iki mövqedə oynadırdılar. Bunlardan biri yarımmüdafiənin dayaq zonası, digəri müdafiənin cinahları idi. Müdafiənin mərkəzində mümkün səhvlər, irəli xətdə isə qeyri-effektiv olmaları çalışdırıcıların bu mövqelərdə gənc futbolçulara şans verməməsinə səbəb oldu. Beləliklə, akademiyalar üzərində dayaq yarımmüdafiəçisi və cinah müdafiəçisi tələbləri artdı. Akademiyaların məhz bu istiqamətlərə fokuslanması, eyni zamanda bu mövqelərə tələbatın artması ilə gənc oyunçular həmin istiqamətə üz tutdular. Hazırda futbolumuzda hücumçu, vinger, hətta mərkəz müdafiəçisi mövqelərində ciddi defisit olmasının səbəblərindən biri də məhz tətbiq olunan limitin kor-koranəliyi idi.

## PROBLEMİN MİLLİ KOMANDAYA DA TƏSİRİ VAR

Azərbaycan yığmasının əsas hücumçuları ölkə xaricində çıxış edirlər. Mahir Emreli Almaniyanın "Nürnberq", Renat Dadaşov Polşanın "Radomyak" klubunun formasını geyinir. Bu mövsüm Emreli dörd, Dadaşov isə iki qolun müəllifi olmağı bacarıb.

Futbolumuzdakı ümumi qeyri-məhsuldarlıq milli komandaya da təsirsiz ötüşməyib. Yığma son altı rəsmi oyunda cəmi üç qol vura bilib. Son iki yoxlama matçında isə komandamız Bakıda nə Haitiyə, nə də Belarusa qol vura bilib. Görünür ki, futbolumuzdakı yaradıcı oyunçu çatışmazlığı milli komandaya da mənfi mənada təsirini göstərir. Düzdür, yığmamız heç də hər zaman məhsuldarlığı ilə seçilməyib, lakin indiki situasiya da olduqca acınacaqlıdır.

### LİMİTİN LƏĞVİ NECƏ TƏSİR EDƏCƏK?

Növbəti mövsüm Azərbaycanda legioner limiti ləğv olunacaq. Bu isə bəzən məcburiyyətdən oynadılan yerli futbolçuların da şans almağını çətinləşdirəcək.

Əlbəttə, qərar yenidir və futbolumuza təsirlərinin necə olacağını yalnız praktikadan keçdikdən sonra müəyyənləşdirmək olar. Lakin sadə məntiq onu deməyə əsas verir ki, hətta limit olduğu dövrdə az qala heç nə ilə diqqət çəkməyən yerli futbolçular üçün limitin ləğvindən sonra vəziyyət daha da çətinləşəcək. Əgər indi qol vurmaq problemindən bəhs ediriksə, bu gedişlə azərbaycanlı futbolçuların niyə oynamadığı və ya niyə heyətə düşə bilmədiyi mövzusu gündəmə gələcək.



RENAT DADAŞOV
MAHİR EMRELİ